02_27 IYUl-QARA.qxd 1/15/2026 8:54 PM Page 1

UNİKAL

№02 (2281) 16 yanvar 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Azərbaycandakı özəl məktəblərin ağlasığmaz qiymətləri



Səh.8

## "Azərbaycanlıların kökünü kəsmək lazımdır" deyən Xaçaturyanı niyə verdik? - SƏBƏB

*Yanvar ayının 14-də Bakıda həbsdə olan Vaqif Xaçaturyan və digər üç erməni Azərbaycan tərəfindən Ermənistan Respublikasının müvafiq qurumlarının nümayəndələrinə təhvil verilib. Təhvil-təslim prosesi elə Vaqif Xaçaturyanın 2023-cü ilin yayında saxlanıldığı Həkəri çayı üzərindəki körpüdə həyata keçirilib. Bu addım rəsmi Bakının humanist davranışı və sülh prosesinə töhfəsi kimi qiymətləndirilir. Lakin Xocalıda qətliam törətmiş bir şəxsin cəzadan azad edilməsi azərbaycanlıların, xüsusilə də Xocalıda işgəncə görənlərin və öldürülənlərin ailə üzvlərinin kəskin reaksiyasına səbəb olub. Onu da unutmamaq lazımdır ki, Azərbaycan ordusu "qisas əməliyyatı"nı döyüş meydanında başa...*

Səh.9

## "Çox ciddi hadisələr baş verməkdədir"



*Politoloq Zaur Məmmədov "Unikal"a müsahibə verib. O, bir neçə gündür İranda baş verən etiraz aksiyalarının necə tamamlana biləcəyindən, ABŞ lideri Donald Trampın "kömək yoldadır" deməklə nəyi nəzərdə tutmasından, qonşu ölkədə baş verənlərin Azərbaycana necə təsir edəcəyindən...*

Səh.4

## İrandakı hadisələr Azərbaycan iqtisadiyyatına necə təsir edəcək?



*"Bu gün BMT Təhlükəsizlik Şurasının İrandakı vəziyyətlə bağlı təcili iclası keçirilə bilər. Bu, İranda baş verənlərlə bağlı ciddi bir sinqaldır". "Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi 2024-cü ildə əvvəlki ilə nisbətən 25 faiz...*

Səh.3

## Vətəndaş cəmiyyətinin inkişafında yeni "pəncərə"



*Ötən ay Prezident İlham Əliyev QHT Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi fərman və sərəncamlarda dəyişiklik edilməsi haqqında Fərman imzaladı. Sözügedən fərman bir daha təsdiq etdi ki, dövlət-vətəndaş cəmiyyəti münasibətlərində koordinasiyanın gücləndirilməsi..*

Səh.11

02_27 IYUI-QARA.qxd 1/15/2026 8:54 PM Page 2



# Röya Aygün Kazımovanın mahnısını oxuyacaq



***"Çox arzulayırıq ki, birlikdə layihəmiz olsun. Bütün bəstəkarlardan mahnı gözləyirik, atırlar da. Mahnını oxuyanda deməməlidilər ki, küsmüşdülər, barışdılar və dostluqdan oxuyurlar. Biz sevgidən oxumalıyıq. İkimizdə güclü qadınıq. Mahnı üçüncü şəxsə aid olmalıdır".***

"Unikal" xəbər verir ki, bu sözləri Xalq artisti Röya Ayxan "müsavat.com"a açıqlamasında deyib. Müğənni Xalq artisti Aygün Kazımova ilə barışığını reklam adlandıranlara cavab verib.

Röya bildirib ki, Aygün Kazımovanın mahnısını oxuyacaq: "Heç piar deyil. Yaxşı ki, barışmışam. Həyatıma yenilik gəlib. Sevgimi, səhvimi deyə bilirəm. Problemim olanda da ona deyə bilirəm. Aygün xanımın mahnısını oxuyacağam. İki mahnıdan birini Zamiq Hüseynov oxudu. Biri mənə qaldı. Oxuyacağam, inşallah, ad gününə çatdıraram".

# "Dünya hara gedir, belə yaşayış olmaz" - Xatirə İslam

***Müğənni Xatirə Islam süni intellektlə hazırlanan mahnıları tənqid edib.***

Axşam.az xəbər verir ki, videoaçıqlama yayan Xatirə ona bu cür mahnı göndərənlərə səslənib. O bildirib ki, heç vaxt belə qeyri-peşəkarlığı qəbul etməyəcək: "Əvvəl bəstəkar müğənniyə mahnı göndərirdi ki, filan şairin şeirinə mahnı yazmışam. İndi süni intellekt deyilən bir şey var. Müəyyən mahnılar var ki, süni intellektlə hazırlanıb. Bu da düşür dillərə, insanların ürəyini fəth edir. Hansısa mahnı çıxır və bunu həmin an başa düşürəm ki nədir. Hansı üzlə bunu köməkçilərimə göndərirsiniz ki, belə mahnı var və satırıq? "Olmazlar" dediyimiz işlər olur. Dünya hara gedir, nə yeyib, nə içirsiniz? İnsanlara



nələrsə olub. "Heç vaxt heç nəyi etmək olmaz" kimi şeyləri edirik. "Danışmaq olmaz" dediyimiz söhbətləri danışırq. Aydın məsələdir ki, qurma mahnıdır, eşidilib. Bunun qarşısını alaq. Bizə nəsə olub. Bu formada yaşayış olmaz. Hərəkətlərinizə fikir verin. Belə yaşamaq olar?".

# Şəbnəm ad gününə gəlmələri üçün xalq artistlərinə pul ödəyib?

***Müğənni Şəbnəm Tovuzlu bir çox Xalq artistinin ad gününə qonorar qarşılığında gəlməsi iddialarına cavab verib.***

"Unikal" xəbər verir ki, bu haqda "İncə səhər" verilişində danışan Şəbnəm heç kimə pul ödəmədiyini deyib: "Sənət dostlarımın heç birinə pul ödəmədim. Heç biri məndən bir qəpik də almadı. Röya ilə ara-



mızda bir çox ortaq dostlarımız var. Namiq Qaraçuxurlu ilə tez-tez el şənliklərində oluruq. Nazpəri xanım illər əvvəl konsertimə gələ bilməmişdi, bu dəfə dedi, səni tək qoymayacağam. Məleykə Əsədova oğlunun kiçik toyunda, ad günümdə yanımda oldu. Miri Yusif, Elnur Məmmədov dostumdur, bir qəpik almadılar". (axşam.az)



# Rəqsanədən Xoşqədəmə cavab

***Müğənni Rəqsanə İsmayılova aparıcı Xoşqədəm Hidayətqızının onun haqda səsləndirdiyi fikirlərə cavab verib.***

Rəqsanə sosial şəbəkədə video paylaşaraq Xoşqədəmin ondan inciməsinə haqq verdiyini bildirib: "Xoşqədəm xanımın valideynləri dünyasını dəyişəndə Azərbaycanda deyildim, anam da xəstə idi deyə, göndərə bilmədim. Amma bizim ortaq tanıdığımız bir xanım var, ona dedim ki, Azərbaycana gələn kimi Xoşqədəmin yanına gedəcəyəm. Azərbaycana da qayıdan kimi başıma belə gəldi və gedə bilmədim. Xoşqədəm xanımın sözlərində həqiqət var, onun valideynlərinin yas mərasimində iştirak etməmişəm və qızım da getməyib. Düz danışan adamam. Xoşqədəm xanım da çox sağ olsun ki, reallığı deyir, normal münasibətimiz var. Atamı da onun verilişində axtarmışdım, o da sağ olsun, tapmışdı. Mən ondan incimişəmsə, onun da məndən inciməyə haqqı var".

# Samirə yenidən münsif olacaq

***"Avroviziya" təmsilçilərimizdən olan Samirə Əfendi yenidən münsif kürsüsündə əyləşək.***



Axşam.az xəbər verir ki, ifaçı Moldovanın "Avroviziya" Mahnı Müsabiqəsinə iştirakçı seçmək üçün təşkil etdiyi milli seçim turu - "Selectia Nationala 2026"nın finalında münsif qismində yer alacaq. O, tədbir çərçivəsində səhnə performansı da təqdim edəcək.

Final 17 yanvar tarixində keçiriləcək.

Qeyd edək ki, Samirə bundan əvvəl "Silk Way Star" beynəlxalq musiqi layihəsinin münsif kürsüsündə əyləşmişdi. Samirənin finalda səsvermə zamanı bütün iştirakçılara, həmçinin, Ermənistan təmsilçisi Saro Gevorqyana 12 xal verməsi və qucaqlaması qalmaqala səbəb olmuşdu.

# "Birlikdə yaşlanmaq istədiyim adam..."

***Müğənni Sevda Yahyayeva həkim həyat yoldaşı Zakir Bayramovla bağlı paylaşım edib.***

"Unikal" xəbər verir ki, ifaçı həyat yoldaşının ad günü olduğunu bildirib və onu bu münasibətlə təbrik edib: "Səninlə həyat daha mənalı, ev daha isti, gələcək daha ümidlidir. Birlikdə yaşlanmaq istədiyim insanın bu gün ad günüdür. Yeni yaşın bizə daha çox xoşbəxtlik gətirsin".

Qeyd edək ki, Sevda və Zakir cütlüyünün 2 qız övladı var.



02_27 IYUl-QARA.qxd 1/15/2026 8:54 PM Page 3



# Azərbaycandakı özəl məktəblərin qandonduran qiymətləri

## Ölkədə illik təhsil haqqı 50 min manatdan çox olan qeyri-dövlət təhsil müəssisəsi də varmış... - Ağlasığmaz rəqəmlər!

***Azərbaycanda fəaliyyət göstərən özəl məktəb və liseylərin illik təhsil haqqı məbləğləri açıqlanıb. Həmin məbləğlərlə tanış olduqda sözügedən təhsil müəssisələrində qiymətlərin fantastik dərəcədə yüksək olması diqqətdən qaçmayıb.***

Məlum olub ki, ölkədə hətta illik qiyməti 50 min manatın üstünə çıxan özəl məktəb də var. Sözügedən təhsil müəssisələrin çoxunda isə sözügedən məbləğ 6-7 min manatdan başlayır. İndi isə gəlin açıqlanan illik təhsil haqqı qiymətləri ilə tanış olaq.

### Qandonduran məbləğlər...

Belə ki, modern.az-ın araşdırmasına görə, Bakı Atatürk Liseyində V-IX siniflər üzrə illik təhsil haqqı 2 500-4 500 manat təşkil edir. Simurq Liseyində I-IV siniflər üçün ödəniş 2 625-5 250 manat, V-IX siniflər üzrə isə 2 890-3 940 manatdır. Western School-da V-IX siniflər üçün illik təhsil haqqı 6 000 manat müəyyən edilib. Müasir İnnovasiyalar Liseyində I-IV siniflər üzrə qiymətlər 6 000-7 000 manat, V-IX siniflər üçün 6 500-8 000 manat, X-XI/XII siniflər üzrə isə 7 000-8 500 manatdır.

Landau School-da ibtidai siniflər üzrə illik ödəniş 6 300-8 700 manat, orta siniflərdə isə 7 300-13 600 manat arasında dəyişir. Erudit Liseyində V-IX siniflər üzrə illik təhsil haqqı 6 500 manatdır. Hədəf Liseyində I-IV siniflər üçün ödəniş 6 500-9 000 manat, V-IX siniflər üzrə isə 5 000-9 000 manat təşkil edir. Yaşam Beynəlxalq Məktəbində ibtidai siniflərdə təhsil haqqı 6 550-7 250 manat, orta siniflərdə 7 250-8 670 manat, tam orta pillədə isə 4 800 manatdır.

Bakı Beynəlxalq Təhsil Kompleksində V-IX siniflər üzrə illik ödəniş 8 000-9 000 manat səviyyəsindədir. Kaspi Liseyində I-IV siniflər üçün qiymətlər 8 350-9 000 manat, V-IX siniflərdə 8 850-9 950 manat, X-XI/XII siniflər üzrə isə 8 950-9 450 manat təşkil edir. Ada School-da ibtidai siniflər üzrə illik təhsil haqqı 15 000 manat, tam orta pillədə isə 8 400-11 550 manatdır. Bakı İstanbul Liseyində V-IX siniflər üzrə ödəniş 9 000-10 000 manatdır. Evrika Liseyində ibtidai siniflər üçün qiymətlər 9 000-10 500 manat, orta siniflərdə isə 9 500-14 500 manatdır.

Beynəlxalq Maarif Məktəblərində I-IV siniflər üzrə illik təhsil haqqı 9 201-10 862 manat, V-IX siniflər üçün 10 357-12 307 manat müəyyən edilib. İdrak Liseyində ibtidai pillədə ödəniş 10 000-12 500 manat, orta siniflər üzrə isə 10 500-16 500 manat təşkil edir. Dünya Məktəbində I-IV siniflər üçün təhsil haqqı 11 000-13 500 manat, V-IX siniflərdə isə 11 500-17 500 manatdır. Avropa Azərbaycan Məktəbində ibtidai pillə üzrə ödəniş 11 250 manat, orta siniflər üçün 13 250 manat, tam orta təhsil üzrə isə 16 150 manatdır. XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzində V-IX siniflər üzrə illik təhsil haqqı 12 000-14 500 manatdır. Britaniya Məktəbində I-IV siniflər üçün ödəniş 12 000 manat, tam orta pillədə isə 15 000 manat təşkil edir. Bakı Modern Təhsil Kompleksində V-IX siniflər üzrə illik təhsil haqları 12 000-25 000 manat arasında dəyişir.

Sabis Sun International School-da orta siniflər üzrə təhsil haqqı 14 400-15 900 manatdır. Sabah School-da V-IX siniflər üçün illik ödəniş 15 000 manatdır. Oxbridge Academy Baku-da ibtidai siniflər üzrə təhsil haqqı 15 640 manat, orta siniflərdə 15 640-18 020 manat, tam orta pillədə isə 20 740-24 820 manat təşkil edir. Bakı Oxford Məktəbində I-IV siniflər üzrə ödəniş 17 000-17 500 manat, V-IX siniflər üçün 17 500-18 000 manat, X-XI/XII siniflər üzrə isə 18 000-20 500 manatdır. Müasir Təhsil Kompleksində ibtidai siniflər üzrə illik təhsil haqqı 18 300 manat, orta siniflərdə 14 800-18 800 manat, tam orta pillədə isə 15 000-19 000 manat müəyyən edilib. Azərbaycan Britaniya Kollecində illik təhsil haqqı ibtidai siniflər üzrə 20 000 manat, orta siniflər üçün 21 000-22 000 manat təşkil edir, Azərbaycan Beynəlxalq Məktəbində isə bu göstərici 54 900 manatdır.



### Yüksək qiymətlər ilbəil daha da artır...

Araşdırmalar göstərir ki, yeni tədris ilində 2024/2025-ci tədris ili ilə müqayisədə əksər özəl məktəblərin qiymətlərində fərqlilik qeydə alınıb.

Müasir İnnovasiyalar Liseyində bütün pillələr üzrə qiymət artımı qeydə alınıb. Belə ki, 2024/2025-ci tədris ilində ibtidai siniflər üçün 5 500-6 500 manat təşkil edən illik ödəniş 2025/2026-cı ildə 6 000-7 000 manata yüksəlib. Orta pillədə qiymətlər 7 000-7 500 manatdan 6 500-8 000 manata, tam orta təhsil pilləsində isə 7 000-9 000 manatdan 7 000-8 500 manata qədər dəyişib. Ümumilikdə artım 500-1 000 manat aralığında olub.

Landau School-da da oxşar dinamika müşahidə olunur. Əvvəlki tədris ilində ibtidai siniflər üzrə 6 000-8 300 manat olan təhsil haqqı yeni ildə 6 300-8 700 manata, orta pillədə isə 7 000-12 900 manatdan 7 300-13 600 manata yüksəlib. Artım orta hesabla 300-700 manat təşkil edib.

Dünya Məktəbində qiymət artımı daha nəzərəçarpandır. Belə ki, 2024/2025-ci ildə ibtidai siniflər üçün 10 000-12 500 manat olan ödənişlər 2025/2026-cı ildə 11 000-13 500 manata, orta pillədə isə 10 500-16 500 manatdan 11 500-17 500 manata çatdırılıb. Bu məktəbdə artım 1 000 manat səviyyəsində qeydə alınıb.

Bakı Oxford Məktəbində xüsusilə yuxarı siniflər üzrə qiymətlər əhəmiyyətli dərəcədə yüksəlib. 2024/2025-ci ildə 16 500-17 500 manat aralığında olan ödənişlər yeni tədris ilində 17 000-18 000 manata, tam orta təhsil pilləsində isə 18 000-20 500 manata yüksəlib. Burada artım bəzi pillələr üzrə 3 000 manata qədər çatıb.

Ada School-da qiymət siyasəti daha çox struktur dəyişikliyi ilə diqqət çəkir. Əvvəlki tədris ilində tam orta pillə üzrə 8 000 manat olan illik təhsil haqqı 2025/2026-cı ildə ibtidai siniflər üçün 15 000 manat, tam orta pillədə isə 8 400-11 500 manat aralığında müəyyən edilib.

Bununla yanaşı, Britaniya məktəbində də qiymətlərdə artım nəzərə çarpır. Belə ki, sözügedən məktəbdə 2024/2025-ci ildə ibtidai təhsildə qiymətlər 8 000-14 000 manat , orta təhsil pilləsində isə 14 000 manat təşkil edibsə, 2025/2026-cı tədris ilində bu rəqəm müvafiq olaraq 12 000, 15 000 olaraq dəyişib.

Araşdırmaya əsasən, ən kəskin qiymət artımı Azərbaycan Beynəlxalq Məktəbində müşahidə olunub. Belə ki, 2024/2025-ci tədris ilində 43 673 manat olan illik təhsil haqqı 2025/2026-cı ildə 54 900 manata yüksəlib. Artım orta hesabla 11 227 manat təşkil edib.

Ümumilikdə, 2025/2026-cı tədris ilində özəl məktəblərdə təhsil haqları əsasən 500-2 000 manat aralığında artıb. Xüsusilə beynəlxalq proqramlar və tam orta təhsil pillələri üzrə qiymətlərin daha sürətlə yüksəldiyi müşahidə olunur. (Mənbə: Banco.az)

### Fantastik qiymətlərlə verilən təhsil arasında... uçurum?!

Bəziləri belə hesab edirlər ki, özəl məktəblərin illik təhsil haqlarının Azərbaycan reallığında kifayət qədər baha olması bir həqiqətdir, lakin bu qiymətlərə şagirdlərin qidalanmasının, özəl dərslərinin və xüsusi dərs vəsaitlərinin də daxil olmasını unutmamaq lazımdır. Bir çox ekspertlər isə hətta sadalanan xidmətlər müqabilində də özəl məktəblərin təhsil haqlarının anormallığına diqqət çəkirlər. "Bu qədər yüksək qiymətlər fonunda özəl məktəblərin əksəriyyətinin şagirdləri buraxılış, yaxud qəbul imtahanlarında heç də ürəkaçan nəticə göstərmirlər. Elə isə sual ortaya çıxır: sözügedən təhsil müəssisələrinə ölkədəki minimum əmək haqqından dəfələrlə çox ödəniş etməyin mənası nədir?" - bir sıra təhsil mütəxəssisləri haqlı olaraq soruşurlar.

"Düzdür, özəl məktəblərdə təhsil alanların əksəriyyəti xaricdə təhsil almağı düşünürlər və xüsusi tədris proqramı əsasında təhsil alır, fərqli imtahanlar verirlər. Ancaq bu halda da onların çoxu başqa ölkələrin ali məktəblərində daha çox ödənişli təhsil alırlar, nadir hallarda təqaüd qazana bilirlər, belədə yenə də sual yaranır: əgər özəl məktəb şagirdləri xaricdə ali təhsili də böyük məbləğlərlə ifadə olunan ödənişlər hesabına alacaqlarsa, bu məktəblərə az qala ibtidai siniflərdən hər il külli miqdarda vəsait ödəməyin bir mənası varmı?" - deyə bəzi ekspertlər sual edirlər.

Onu da deyək ki, bir müddət öncə ölkədəki özəl məktəblərin fəaliyyəti ilə bağlı danışarkən təhsil mütəxəssisi Elçin Əfəndi maraqlı bir fikir səsləndirmişdi: "Özəl məktəblər illik təhsil haqlarını ildən-ildə artıran zaman buna paralel olaraq təhsilin keyfiyyətinin də yüksəldilməsinə çalışmalıdırlar. Lakin biz müşahidə edirik ki, bəzən özəl məktəblərin məzunlarının əldə etdiyi nəticələr hansısa ucqar, dağ kəndinin şagirdinin nəticələri qədər olur. Və yaxud bəzən rayonlardan olan abituriyentlərin imtahan nəticələri özəl təhsil müəssisələrinin məzunu olan abituriyentlərdən daha yüksək olur..."

Əslində bu cür düşünən başqa mütəxəssislər də var. Məsələn, təhsil eksperti Nizami Hüseynov da təxminən iki il öncə yerli mediaya açıqlamasında bildirmişdi ki, özəl məktəblərin təhsil haqqının rəsmi olaraq tənzimlənməsinə ehtiyac var: "Azərbaycanda özəl məktəblərin qiyməti çox bahadır. Xarici ölkələrlə belə qiymət müqayisə oluna bilməz. Bu səbəbdən də hesab edirəm ki, özəl məktəblərin də təhsilhaqlarının tənzimlənməsinə ciddi ehtiyac var. Özəl məktəblər qiymətin baha olmasını onunla əsaslandırırlar ki, müəllimlərin maaşı yüksəkdir, dərslikləri xaricdən alırlar və s. Araşdırsaq görərik ki, həmin təhsil müəssisələrində çalışan müəllimlər 10-20 min əmək haqqı almır". "Etiraf etmək lazımdır ki, özəl məktəblər yalnız varlılar üçündür. Çünki bu məktəbləri yaradan sahibkarlar kommersiya məqsədilə bu addımı atıblar. Rəqabət olmadığına görə qiymətlər də fantastikdir. Demək olar ki, hamısında standart qaydalar tətbiq olunub. Yəni kreativ və fərqli metodlar yoxdur".

Oxşar fikirdə olanların siyahısını yetərincə uzatmaq mümkündür. Bütün bu deyilənlərin fonunda Azərbaycandakı özəl məktəblərin aldıqları fantastik təhsil haqqı ilə verdikləri təhsilin keyfiyyəti arasında müqayisə aparıb nəticə çıxarmağı oxucuların öhdəsinə buraxırıq.

**Sənan Mirzə**

02_27 IYUl-QARA.qxd 1/15/2026 8:54 PM Page 4



# "Azərbaycanlıların kökünü kəsmək lazımdır" deyən Xaçaturyanı niyə verdik? - SƏBƏB

***Yanvar ayının 14-də Bakıda həbsdə olan Vaqif Xaçaturyan və digər üç erməni Azərbaycan tərəfindən Ermənistan Respublikasının müvafiq qurumlarının nümayəndələrinə təhvil verilib.***

Təhvil-təslim prosesi elə Vaqif Xaçaturyanın 2023-cü ilin yayında saxlanıldığı Həkəri çayı üzərindəki körpüdə həyata keçirilib.

Bu addım rəsmi Bakının humanist davranışı və sülh prosesinə töhfəsi kimi qiymətləndirilir. Lakin Xocalıda qətliam törətmiş bir şəxsin cəzadan azad edilməsi azərbaycanlıların, xüsusilə də Xocalıda işgəncə görənlərin və öldürülənlərin ailə üzvlərinin kəskin reaksiyasına səbəb olub.

Onu da unutmamaq lazımdır ki, Azərbaycan ordusu ”qisas əməliyyatı”nı döyüş meydanında başa çatdırıb. Yəni biz Xocalının qisasını çoxdan almışıq.



Səbəb axtarırıqsa, bunu sözügedən 4 erməninin azad olunması üçün bir səbəb kimi göstərə bilərik. Ona görə də ölkə daxilindəki separatçı rejimin keçmiş siyasi-hərbi rəhbərliyindən başqa, istənilən erməni Bakının uyğun gördüyü zamanda qarşı tərəfə təhvil verilə bilər. Çünki insan faciəsini - ailə üzvlərinin öldürülməsini, hətta özünün işgəncələr gördüyünü zamanla unudur, dövlət isə öz ərazisində ikinci bir ”respublika” yaradılması cəhdlərini heç vaxt unutmayacaq!

### Xaçaturyan Vaqif Çerkezoviç kimdir?

Vaqif Xaçatryan 1955-ci ildə Əsgəran rayonunun Badara kəndində anadan olub. O, 1973-cü ildə üç aylıq hərbi avtomobil məktəbini bitirib. 1974-1976-cı illərdə keçmiş sovet ordusu sıralarında hərbi xidmətdə olub, sonra isə Xankəndi şəhərində aqrarsənaye idarəsində sürücü işləməyə başlayıb. 1992-ci ilin sentyabr ayında Robert Köçəryan Qarabağ Komitəsinin rəhbəri olduqdan sonra, 50-55 yaşına qədər ermənilərin özünümüdafiə adı altında Stepanakert (indiki Xankəndi şəhəri - red.) şəhər hərbi komissarlığından səfərbərliklə xidmətə çağırılıb.

Daha sonra isə hərbi komissarlığın hərbçiləri tərəfindən Əsgəran rayonunun Noragüh kəndinə aparılıb. Orada onlara 5-10 gün müddətində silahdan istifadə, hədəfə atəş açmaq və digər təlim məşqləri keçirilib. Təlimdən sonra isə 1992-ci ilin sentyabr ayının ortalarında Vaqif Xaçaturyanın olduğu qrup Fərrux dağının yüksəkliyinə aparılıb. Oradakı postda xidmətdə olub.

Özünün də etirafına görə, o, Bakıya gətirildikdən sonra yox, elə 1992-ci ildəki xidmət yeri olan Fərrux dağında ağır xəstələnib. Belə ki, Xaçaturyan postda xidmət aparan zaman böyrəkləri və bağırsaqları soyuqladığına görə, 1992-ci ilin oktyabr ayının əvvəllərində indiki Xankəndi şəhər xəstəxanasına aparılıb və orada təxminən 20 gün müalicə olunub. Sonra xəstəliyi ilə bağlı xidmətdən tərxis olunub. Mülki şəxs kimi arxa təminat xidmətində, Əsgəran rayonunun Noragüh kəndində yerləşən ərzaq anbarında fəhlə kimi işləməyə başlayıb.

1994-cü ilin iyun ayında müharibə, real mənada isə işğal prosesi bitdikdən sonra Vaqif Xaçaturyan həmin işdən çıxıb və Badara kəndində təsərrüfatçılıqla məşğul olmağa başlayıb.

Yəni onun həbs edilməsi fonunda xəstələnməsi ilə bağlı erməni tərəfinin yaratdığı səs-küylər reallıqdan uzaqdır. Bakıda xəstəxanaya yerləşdirilməsi isə Xaçaturyanın yaşı ilə əlaqədardır. Onu hələ Birinci Qarabağ Müharibəsinin gedişatında Fərrux dağının soyuğu tutub...

### Bəs Vaqif Xaçaturyan hansı cinayətlərinə görə saxlanılmışdı?

Müharibədə əlində silah belə olmadığını deyən Xaçaturyan, qanunsuz erməni silahlı birləşmələrinin tərkibində 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində sözün əsl mənasında soyqırımı törədib. Birinci Qarabağ müharibəsində iştirak etmiş Təmraz Məmmədov hələ məhkəmədə Xaçaturyana yaxınlaşaraq ”Vaqif, tanıdın məni, evə “limonka” atmışdın”, - demişdi.

Zərərçəkmiş Naidə Mehralıyeva mərhum atasının təqsirləndirilən şəxsi yaxşı tanıdığını deyib: ”Yoldaşım döyüşlərdə idi. Özüm hamilə idim və 1 yaşlı uşağım da vardı. Ermənilər hücuma keçəndə meşəyə qaçdım və 4 gün orada qaldıq. Övladımı da meşədə itirdim”.

Məhkəmədə zərərçəkmiş Məhəmməd Kazımov bildirib ki, Xaçaturyan milliyyətçi olması və türklərə nifrət etməsi ilə tanınıb: ””Qaron” adlı restoranın qarşısında 20 nəfərə yaxın erməni ilə mübahisə etdiyimizə görə Xankəndi Şəhər Polis İdarəsinə aparıldıq. Xankəndi avtobazasında sürücü işləmiş Xaçaturyan tanımadığım 5 nəfər mülki geyimli şəxslə otağa daxil olub bizi döyməyə başladılar. Vaqif bizi döyən zaman ”siz azərbaycanlıların kökünü kəsmək lazımdır” ifadəsini tez- tez işlədirdi”.

Beləliklə, Vaqif Xaçaturyanın üzv olduğu cinayətkar dəstə 1991-ci ilin dekabr ayında Xocalı rayonunun Meşəli kəndində 25 nəfər azərbaycanlını öldürüb, 14 nəfərə xəsarət yetirib, 358 nəfər azərbaycanlını isə qanuni yaşadıqları yerdən didərgin salıb.

Sonda isə o, Azərbaycan xalqından üzr istəmişdi.

### Xocalı qatili niyə təhvil verildi?

Gəlin indi müəyyənləşdirək Rəsmi Bakı erməniləri niyə təhvil verdi? Yuxarıda qeyd etdiyim kimi, Xocalının qisası alınıb. Məhkəmədə göz yaşları tökən 70 yaşlı erməninin Bakıda qalmasına ehtiyac yoxdur.

İkinci bir məqam ondan ibarətdir ki, onsuz da ölüm ayağında olan Xaçaturyanın Bakıda ölümü diqqəti üzərimizə çəkmək demək olardı. ”Ermənistanda olduğum müddətdə yaxşıyam” deyən Vaqif, elə Ermənistanda ölsə yaxşıdır.

Üçüncüsü isə bir qədər siyasi məsələdir. Ermənistanda yaxınlaşan seçkilər fonunda Baş nazir Nikol Paşinyanın mövqeyi gücləndirilməlidir. Bakı da Paşinyanın İrəvanda yeganə normal düşüncədə olan siyasətçi olduğunu anlayır. Bu məqamda 4 erməninin təhvil verilməsi məsələsini məhz Paşinyanın açıqlaması təsadüfi deyildi.

Prinsip etibarı ilə Azərbaycan qisasını alıb, günahkarların cəzasını hüquqi çərçivədə kəsib, həmçinin öz sülhməramlı mövqeyini dünyaya nümayiş etdirib. Xaçaturyan isə hər nə olursa olsun, meşədə donaraq ölən 1 yaşlı günahsız uşağın hesabını məhşərə qədər verə bilməyəcək!

***Ağarza Elçinoğlu***



# İrandakı bəzi etirazçılara bu qədər pul ödənilib

***İrandakı iğtişaşların bəzi iştirakçıları müəyyən hərəkətlər üçün 300 ilə 600 dollar arasında pul alıblar.***

”Unikal” xəbər verir ki, bu barədə ”RİA Novosti” agentliyi İrandakı diplomatik mənbəyə istinadən məlumat dərc edib.

Məlumata görə, iğtişaşçılara polis bölməsinə hücum etdiklərinə görə 600 dollar, hökumət maşınlarını yandırdıqlarına görə isə 300 dollar ödənilib. Mənbə bildirib ki, ”bu ödənişlərin sənədli sübutları var”.

Xatırladaq ki, İranda kütləvi etirazlar 2025-ci ilin dekabr ayının sonlarında milli valyuta olan İran rialının devalvasiyasından sonra başlayıb. Buna cavab olaraq hakimiyyət təhlükəsizlik tədbirlərini gücləndirib, polis etirazçılarla mübarizə aparmaq üçün göz yaşartıcı qaz və hava tüfənglərindən istifadə edib.

Son məlumatlara əsasən, İranda keçirilən etiraz aksiyalarına təhlükəsizlik qüvvələrinin sərt müdaxiləsi nəticəsində ölənlərin sayı 2 615-ə yüksəlib, 18 470 nəfər isə həbs edilib.

***Gülayə Mecid***

# Şuşada minatəmizləmə fəaliyyəti yeni qaydalarla tənzimlənəcək

***Şuşa şəhərinin ərazisində minatəmizləmə fəaliyyəti yeni qaydalarla tənzimlənəcək.***




”Unikal” xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi “Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” qanuna edilən dəyişiklikdə əksini tapıb.

Sənədə əsasən, tarixi və arxeoloji əhəmiyyət kəsb edən ərazilərdə minatəmizləmə fəaliyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndəsinin iştirakı ilə aparılacaq. Bu zaman həmin ərazi əvvəlcədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzərdən keçirilərək və abidələrin ilkin tədqiqi təmin ediləcək.

Şuşa şəhərinin ərazisində minatəmizləmə fəaliyyəti aparılarkən abidə aşkar edildikdə aparılan iş dərhal dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməlidir. Bu halda işlərin davam etdirilməsi barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul ediləcək.

02_27 IYUI-QARA.qxd 1/15/2026 8:54 PM Page 5



## Prezident MİQ-in ödənişli olmasını təsdiqladi



***Müəllimlərin işə qəbulu (MİQ) ilə əlaqədar keçirilən müsabiqədə iştirak ödənişli olacaq.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev "Ümumi təhsil haqqında" Qanuna dəyişiklikləri təsdiqləyib.

Qeyd edilib ki, dəyişikliklərə əsasən, ödəniş ilk dəfə müsabiqədə iştirak edənlər, əlilliyi olan şəxslər, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, şəhid ailəsinin üzvləri və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərə münasibətdə nəzərdə tutulmayıb. Bundan əlavə, ölkə başçısının imzaladığı Fərmana əsasən, Nazirlər Kabineti müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləğini üç ay müddətində təsdiq edib Azərbaycan Prezidentinə məlumat verməlidir.

## Prezident İqbal Hüseynovu vəzifəsindən azad etdi

***"Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini İqbal Əli oğlu Hüseynov vəzifəsindən azad edilib.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müvafiq sərəncam imzalayıb. Qeyd edək ki, İ.Hüseynov müxtəlif vəzifələrdə çalışıb, 2004-2010-cu illərdə Azərbaycan Dövlət Dəmir Yolunun iqtisadi məsələlər üzrə rəis müavini, 2010-2026-cı illərdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini vəzifələrində çalışıb.

## Samir Şərifov iclas keçirdi

***Yanvarın 15-də Nazirlər Kabinetində "İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının Bakı şəhərində keçirilməsi" ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib.***

Nazirlər Kabinetindən "Unikal"a bildirilib ki, Baş nazirin müavini, Təşkilat Komitəsinin sədri Samir Şərifov iclası açaraq, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 sentyabr tarixli 711 nömrəli Sərəncamı ilə yaradılmış İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının təşkili ilə bağlı Təşkilat Komitəsinin qarşısında duran əsas vəzifələri qeyd edib, İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının iyunun 16-19-da Bakı şəhərində keçirilməsinin ölkəmizin beynəlxalq nüfuzu baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

İclasda İslam İnkişaf Bankı Qrupunun İllik Toplantısının təşkili üzrə görülmüş işlər və cari hazırlıq vəziyyəti, ilk növbədə, görülməli işlər, onların icra qrafiki və xüsusi diqqət tələb edən məsələlər, İllik Toplantıların keçirilməsinə dair Tədbirlər Planının layihəsi və gündəlikdə duran digər məsələlər müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

Qeyd edək ki, 57 ölkənin üzv olduğu İslam İnkişaf Bankı 1973-cü ildə yaradılıb. Bankın baş qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşir. Azərbaycan Respublikası 1992-ci ildən Bankın üzvüdür.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

## Azərbaycanda bu tibb işçilərinin maaşlarına əlavənin müddəti uzadıldı

***COVID-19-la mübarizədə iştirak edən tibb işçilərinin müddətli əməkhaqlarına əlavənin vaxtı uzadılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə qərara dəyişiklik edilib.

Dəyişikliklə COVID-19-la mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti aprel ayına qədər uzadılıb.

# Sədərək-Yerasx dəmir yolu sahəsinə birgə baxış keçirildi

***Azərbaycan və Ermənistan nümayəndələri bu gün Sədərək-Yerasx dəmir yolu sahəsinin cari vəziyyətinə birgə baxış keçirib.***



Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, bu baxışın məqsədi müvafiq infrastrukturun bərpası tədbirlərinin yerinə yetirilməsi məqsədilə xüsusi dəmir yolu tikintisi texnikasının hərəkəti üçün həmin dəmir yolu sahəsinin texniki cəhətdən yararlılığının qiymətləndirilməsi olub.

Tərəflər keçirilən baxış çərçivəsində həmin sahədə dəmir yolu infrastrukturunun texniki vəziyyətinin qiymətləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar.

# Hesablama Palatası 5 illik Strateji Planı təsdiqləyib

***Hesablama Palatasının 2026-2030-cu illəri əhatə edən yeni Strateji Planı təsdiqlənib.***

"Unikal" bu barədə Palataya istinadən xəbər verir. Məlumata görə, sənəd ali audit orqanının növbəti beş il üçün əsas fəaliyyət istiqamətlərini və prioritetlərini müəyyən edir.

Yeni Strateji Plan 2021-2025-ci illəri əhatə edən Strateji Planın icra müddətinin başa çatması fonunda, əvvəlki dövrdə əldə edilmiş nəticələr, aparılmış qiymətləndirmələr və cari vəziyyətin təhlili nəzərə alınmaqla hazırlanıb.

Strateji Planın formalaşdırılması prosesində əsas maraqlı tərəflərlə səmərəli işgüzar münasibətlər qurulub, onların gözləntiləri təhlil edilərək sənəddə əksini tapıb. Eyni zamanda, yeni Strateji Planda nəticəəsaslı çərçivə daha da genişləndirilib, ilk dəfə olaraq bir sıra əsas performans göstəriciləri üzrə beş illik proqnoz dinamikası müəyyən edilib.

Sənəddə Dövlət Auditi İnformasiya Sisteminin tam qurulması, rəqəmsal həllərin və data analitika alətlərinin genişləndirilməsi, mümkün istiqamətlərdə süni intellektin tətbiqi,




beynəlxalq audit standartlarının daha geniş tətbiqi və audit tövsiyələri əsasında dövlət maliyyə idarəetməsinin gücləndirilməsi əsas prioritetlər kimi müəyyən olunub.

# Şahbaz Şərif İlham Əliyevə təşəkkür edib

***Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ölkəsində ilk "ASAN xidmət" mərkəzinin açılışına dəstək verdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.***



Baş nazir bunu bu gün mərkəzin açılış mərasimində deyib. Hökumət başçısı "ASAN xidmət"i vətəndaşyönümlü idarəetmə, dövlət xidmətlərinin keyfiyyətinin artırılması və biznes fəaliyyətinin sadələşdirilməsi istiqamətində mühüm addım adlandırıb.

Onun sözlərinə görə, mərkəz Milli Məlumat Bazası və Qeydiyyat İdarəsi (NADRA), Xarici İşlər Nazirliyi, polis, Federal Vergi İdarəsi və digər qurumlar da daxil olmaqla bir sıra dövlət strukturlarını bir mərkəzdə birləşdirir ki, bu da xidmətləri effektiv, şəffaf və vətəndaşlar üçün rahat formada təqdim etməyə imkan verir.

Ş.Şərif qeyd edib ki, Pakistan mərkəzinin əməkdaşları Azərbaycanda təcrübəli təlimçilərin rəhbərliyi altında ixtisaslaşdırılmış təlim keçiblər. O əlavə edib ki, nəzakət, peşəkarlıq və xeyirxahlıq dövlət xidmətinin standartına çevrilməlidir.

Baş nazir xatırladıb ki, Bakıda "ASAN xidmət" mərkəzinə səfəri zamanı dövlət orqanlarının yüksək səmərəli və operativ fəaliyyəti onu heyran edib, bundan sonra Pakistanda oxşar modelin tətbiqini tapşırıb.

O, həmçinin ölkənin daha iki regionunda belə mərkəzlərin yaradılması barədə göstəriş verdiyini bildirib və əlavə edib ki, gələcəkdə Azərbaycanın dəstəyi ilə bu sistem Pakistanın bütün ərazisini əhatə edəcək.

# Ceyhun Bayramov Aİ rəsmisi ilə sülh prosesini müzakirə edib

***15 yanvar 2026-cı il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.***

XİN-dən "Unikal"ya verilən xəbərə görə, görüş zamanı Azərbaycan-Avropa İttifaqı (Aİ) əməkdaşlığının cari vəziyyəti və perspektivləri, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında siyasi, iqtisadi, nəqliyyat, enerji təhlükəsizliyi və s. istiqamətlər üzrə əməkdaşlıq məsələləri, əməkdaşlıq platformaları və alətləri üzrə əldə edilmiş razılıqlar, habelə növbəti addımlar nəzərdən keçirilib.

Nazir Ceyhun Bayramov, öz növbəsində Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə məlumat verib, ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Azərbaycanla Ermənistan arasında normallaşma prosesi çərçivəsində atılan addımlar, etimad quruculuğu tədbirləri təqdir olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İrandakı hadisələr Azərbaycan iqtisadiyyatına necə təsir edəcək?

## Vüqar Bayramov: "Əgər İranın ixrac imkanları məhdudlaşarsa, o zaman cənub qonşumuzda istehsal edilən bir sıra məhsulların gətirilməsində çətinlik yarana bilər"



***"Bu gün BMT Təhlükəsizlik Şurasının İrandakı vəziyyətlə bağlı təcili iclası keçirilə bilər. Bu, İranda baş verənlərlə bağlı ciddi bir sınaqdır".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi 2024-cü ildə əvvəlki ilə nisbətən 25 faiz artaraq 647 milyon dollara çatıb: "2023-cü ildə bu göstərici 487 milyon dollar idi. 2025-ci ilin ilk 10 ayında isə ölkələr arasında 510 milyon dollarlıq ticarət dövriyyəsi qeydə alınıb. Rəqəmlər ölkələr arasındakı ticarət əlaqələrinin kiçik göstəricilər ilə ifadə olunmadığını göstərsə də, dövriyyənin strukturu fərqli təəssürat yaradır. Belə ki, ticarət dövriyyəsinin əhəmiyyətli hissəsi İrandan idxaldır. 2024-cü ildə 647 milyon dollarlıq dövriyyənin 633 milyonu İrandan idxal hesabına formalaşıb. Yəni, ümumi ticarət dövriyyəsinin cəmi 3 faizi Azərbaycanın İrana ixracıdır. 2025-ci ilin ilk 10 ayında isə İran ilə olan 510 milyon dollarlıq dövriyyəmizin 502 milyon dolları cənubdan məhsul gətirmək hesabına formalaşıb. Həmin müddətdən cənub qonşumuza sadəcə 8 milyon dollarlıq məhsul ixrac edə bilmişik. Bu isə o deməkdir ki, İranla ticarətdə 502 milyon dollarlıq mənfi saldomuz yaranıb. Deməli, İran ilə ticarət əlaqələrimizdə illər üzrə mənfi saldomuz var. Yəni, İran Azərbaycan ilə ticarət əlaqələrindən daha çox qazanır. Bu isə o deməkdir ki, İran ilə ticarət əlaqələrində texniki çətinliklər olarsa, bunun Azərbaycan ixracatına hər hansı xüsusi təsiri olmayacaq.

İllər üzrə statistik təhlillər göstərir ki, iki ölkə arasındakı ticarətdə İran idxalı dominat olub. Azərbaycanın ümumi ixracatında İranın payı hətta tam rəqəmlər ilə belə ifadə olunmur. İxrac ölkəyə valyuta, idxal isə ölkədən valyuta aparır.Təsirlərə gəldikdə isə bu özünü İrandan idxalın azalmasında göstərə bilər. Azərbaycana İrandan tikinti materialları, kənd təsərrüfatı məhsulları, eləcə də quru meyvələr, yüngül sənaye məhsulları, xüsusən də məişətdə istifadə edilən sənaye məhsulları idxal edilir. Bu aspektdən, daha da konkretləşdirsək: İrandakı son hadisələr Azərbaycanın istehlak bazarına necə təsir göstərə bilər? Əgər İranın ixrac imkanları məhdudlaşarsa, o zaman cənub qonşumuzda istehsal edilən bir sıra məhsulların gətirilməsində çətinlik yarana bilər. Belə ki, 2025-ci ilin ilk 10 ayında Azərbaycan İrandan portağal, təzə və ya qurudulmuş (10.0 milyon dollar), qida üçün yararlı duz, yodlaşdırılmış, digərləri (9.7 milyon dollar), badımcan (7.4 milyon dollar), bibər, o cümlədən capsicum növünün və ya pimenta növünün barı (7.0 milyon dollar), kərə yağı (6.9 milyon dollar), peçenye (6.7 milyon dollar), soğan (6.1 milyon dollar), kartof (5.9 milyon dollar), yerkökü (5.1 milyon dollar), xurma, təzə vəya qurudulmuş (4.7 milyon dollar), kələm (4.5 milyon dollar), pendir (3.4 milyon dollar), təzə və ya soyudulmuş alabalıq (3.1 milyon dollar), sirkəsiz hazırlanmış və ya konservləşdirilmiş digər pomidorlar (2.6 milyon dollar), kivi (2.4 milyon dollar) və digər ərzaq məhsulları idxal edib.

Deputat qeyd edib ki, nə qədər təəccüblü görünsə də, idxalda əsas ağırlıq tikinti və sənaye məhsullarının payına düşüb: "Sözügedən müddətdə İrandan azot (68,4 milyon dollar), arqon (48.6 milyon dollar), mərmərin dənəvərləri, qırıntıları və tozu (17.5 milyon dollar), kvarsit (14.5 milyon dollar), abidə və tikinti daşlarının dənəvərləri, qırıntı və tozu (12.3 milyon dollar), ağ portlandsement (8.1 milyon dollar), təbii barium sulfatı (9.4 milyon dollar), hipoxloritlər, xloritlər və hipobromitlər (5.9 milyon dollar), natrium-hidroksid, kaustik soda (5.0 milyon dollar), dinatrium karbonat (4.7 milyon dollar) və digər qeyri-ərzaq məhsulları idxal olunub. Göründüyü kimi, İrandan ərzaq məhsulları ilə müqayisədə daha böyük məbləğlərdə sənaye və tikinti məhsulları idxal edilir. Təbii ki, idxal edilən məhsulların qiyməti müqayisəli şəkildə nisbətən aşağı olan mallardır. Bu baxımdan xüsusən ərzaq məhsulları üzrə idxalların daha qısa zamanda diversifikasiyasına ehtiyac var.

Bütün bunlar ilə yanaşı İrandan idxal azalacağı halda onun Azərbaycanın istehlak bazarındakı tarazlığa xüsusi təsiri olmayacaq. Çünki, Azərbaycanın illik idxalının 3.0, ərzaq idxalının isə cəmi 2,7 faizi İranın hesabına formalaşır. Bununla belə, regionda baş verən hadisələr fonunda ərzaq məhsullarının idxal bazarlarının şaxələndirilməsi və idxaldan asılılığın minimumlaşdırılması prioritetliyini daha da artırmaqdadır".

***A.Kəlbiyev***

# Gültəkin Hacıbəylinin şikayəti təmin edilmədi



***Ankara İnzibati Məhkəməsi Gültəkin Hacıbəylinin şikayətini təmin etməyib.***

"Unikal" xəbər verir ki, bu barədə özü sosial şəbəkədə paylaş edib:

"Artıq iki aya yaxındır ki, Türkiyədə Çatalca Geri Göndərmə Mərkəzində qapalı həbsxana şəraitində saxlanılıram. Ötən gün İstanbul İnzibati Məhkəməsi barəmdə verilmiş deportasiya qərarının dayandırılması ilə bağlı müraciətimə baxaraq şikayətimi təmin etməyib. Bu gün Ankara İnzibati Məhkəməsi tərəfindən G-82 kodunun ləğvi ilə bağlı irəli sürülən müraciət əsasında İstanbul Valiliyinə sorğu göndərilib".

# Paşinyan ermənilərin verilməsindən danışdı



***Xəbər verdiyimiz kimi, Azərbaycan tərəfi yanvar ayının 14-də 4 nəfər ermənini Ermənistana təhvil verib.***

"Unikal" xəbər verir ki, bir sıra erməni KİV-ləri bu addımı Ermənistanın 2 nəfər Suriya vətəndaşını öz ölkəsinə ekstradisiya etməsi ilə əlaqələndirib. Guya onlar Qarabağda Ermənistana qarşı vuruşub.

Ermənistanın baş naziri Nikol Paşinyan bu barədə iddialara aydınlıq gətirib. O, sözügedən ermənilərin Ermənistana verilməsi ilə suriyalıların geri qaytarılmasının heç bir əlaqəsi olmadığını deyib: "İki hadisənin bir-biri ilə heç bir əlaqəsi yoxdur. Biz Suriya Ərəb Respublikası ilə münasibətlərin inkişafı üzərində işləməyə davam edirik və ümid edirik ki, dostcasına yanaşmamız Suriyadakı erməni icmasına müsbət təsir göstərəcək".

Bununla da Paşinyan Azərbaycan tərəfindən suriyalı muzdluların guya vuruşması ilə bağlı dezindormasiyaları təkzib edib.

***Ağarza Elçinoğlu***

# Sayt və sosial şəbəkədə hörmətsizlik hərəkətləri qadağan edildi

***Sayt və sosial şəbəkədə cəmiyyətə açıqca hörmətsizlik hərəkətləri qadağan edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişikliyi təsdiqləyib.

Belə ki, kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud bədənin hissələrinin insan əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatların yayılması qadağan edilib.

# Bakıdan Qəbələyə və əks istiqamətə qatar fəaliyyətə başladı

***Yeni istifadəyə verilmiş Gəncə-Qəbələ-Gəncə marşrutundan istifadə etməklə hər gün Bakıdan Qəbələyə və əks istiqamətə səfər edə bilərsiniz.***

"Unikal" xəbər verir ki, bu barədə ADY məlumat yayıb. Bildirilib ki, Bakı-Qazax qatarı ilə saat 10:50-də Ləki stansiyasına çatıb, saat 11:12-də Gəncə-Qəbələ qatarı ilə Qəbələyə, Qəbələ-Gəncə qatarı ilə isə saat 18:45-də Ləki stansiyasına çatıb, saat 19:02-də Qazax-Bakı qatarı ilə Bakıya səyahət etmək mümkündür.

Qeyd olunan istiqamətlərlə yanaşı, Bakı-Qəbələ-Bakı marşrutu üzrə ənənəvi qrafiklə şənbə və bazar günləri müntəzəm reyslər təşkil olunur.

02_27 IYUI-QARA.qxd 1/15/2026 8:54 PM Page 7



# "İranda çox ciddi hadisələr baş verməkdədir"

## Zaur Məmmədov: "Hər halda, Azərbaycan üçün cənubda sabitlik olduqca vacibdir"



***Politoloq Zaur Məmmədov "Unikal"a müsahibə verib. O, bir neçə gündür İranda baş verən etiraz aksiyalarının necə tamamlana biləcəyindən, ABŞ lideri Donald Trampın "kömək yoldadır" deməklə nəyi nəzərdə tutmasından, qonşu ölkədə baş verənlərin Azərbaycana necə təsir edəcəyindən və ABŞ-nin İrana hücum edib-etməyəcəyindən danışıb.***

***-Zaur müəllim, son günlər dünyanın əsas gündəmində olan məsələ İranda baş verən etiraz aksiyalarıdır. Artıq 20 günə yaxındır ki, aksiyalar davam edir. Bunun nə vaxta qədər davam edəcəyini düşünürsüz?***

-İranda çox ciddi hadisələr baş verməkdədir. Bu hadisələr bir daha onu göstərir ki, Yaxın Şərqin yeni siyasi xəritəsi cızılmaqdadır. Əgər indi alınmasa, yaxın vaxtlarda İranda siyasi sistemin dəyişilməsi öz aktuallığını saxlamaqdadır. Çünki həm xarici, həm də daxili istiqamətdə bununla bağlı bütün məsələlər aydındır. Biz bilirik ki, son dövrlər bir neçə ölkədə hakimiyyətlər dəyişib. Bu hakimiyyətlərin dəyişilməsində ABŞ və İsrailin Yaxın Şərq layihəsi əsas vacib istiqamətlərdən biridir. Bu aspektdə İraqdan sonra Suriya ətrafında baş verənlər, eyni zamanda Afrikanın Şimalında baş verənlərdən sonra İran kimi ölkələr bu və yaxud digər şəkildə müəyyən çağırışlarla üzüzədirlər. İranda baş verənlər təbii ki, Azərbaycanı da yaxından maraqlandırır. Çünki orada son ixtişaşlar, aksiyalar bir neçə istiqamətdə təhlil edilərkən bizim üçün də önəmlidir. Bunlardan ən vaciblərindən biri Kürd faktoru ilə bağlıdır ki, istər Suriya, İraq, istərsə də İranda bu faktordan istifadə edənlərin kim olduğu hər kəsə bəllidir. Əgər İranda hakimiyyət dəyişərsə, siyasi sistem İraqın, Suriyanın vəziyyətinə düşərsə, o zaman Yaxın Şərqdə nə baş verəcək? Yeni dövlət qurulacaqmı və s. kimi məsələlər ortaya çıxır. Digər tərəfdən İranda hakimiyyət dəyişərsə, bu, Qərblə İran arasında münasibətlərin istiləşməsi demək olacaq. İranın neft və qazının dünya bazarına, o cümlədən Qərb bazarına çıxması demək olacaq ki, bu da Cənubi Qafqaz ətrafında geosiyasi və geoiqtisadi vəziyyətə kifayət qədər ciddi şəkildə təsir edəcək. Digər tərəfdən Cənubi Qafqazın hazırkı geosiyasi və geoiqtisadi statusu bir qədər Cənub istiqamətində çağırışlara gətirib çıxaracaq. Digər məqam oradakı azərbaycanlıların gələcəyi ilə bağlıdır ki, bu da vacib məqamlardan biridir. Hazırda görünən odur ki, Tramp İranda baş verənlərlə bağlı hələ qəti, konkret cavab verməyib. Yəni, ora havadan hərbi müdaxilə edilib-edilməməsi məsələsi sual altındadır. Görünən o idi ki, həm İsrail, həm də ABŞ tərəfi gözləyirdilər ki, bu iğtişaşlar böyüsün və daxildən teokratik hakimiyyətin dəyişilməsi istiqamətində işlər aparılsın və xarici müdaxiləyə ehtiyac olmasın. Düşünülürdü ki, xarici müdaxilə daxili həmrəyliyi zəiflədə bilər. Son iki gündə İran rəsmilərinin açıqlaması isə ona dəlalət edir ki, artıq nisbətən aksiyaların çərçivəsi daralıb. Buna səbəb təbii ki, İran hakimiyyətinin aksiyaçılara qarşı zor tətbiqindən istifadə etməsi ilə bağlıdır. Hər halda Azərbaycan üçün cənubda sabitlik olduqca vacibdir.

***-Bu günlərdə ABŞ Prezidenti Donald Tramp "İranlı vətənpərvərlər, etrazları davam etdirin - öz müəssisələrinizi ələ keçirin" çağırışı edib. Bundan əvvəl isə "kömək yoldadır" ifadəsini səsləndirmişdi. Tramp "kömək yoldadır" deməklə nəyi nəzərdə tutub?***

-Onu qəti şəkildə qeyd etmək olar ki, Trampın hər bəyanatı o demək deyil ki, birbaşa başa düşülməlidir. Çünki kifayət qədər ziddiyyətli bəyanatlar olur. Bəyanatlarla hərəkət, davranış heç də hər zaman üst-üstə düşmür. ABŞ-dən kömək var. Bəzi aksiyaçıların davranışlarına baxsaq görünür ki, o sadə vətəndaşın siyasi və dini hakimiyyətə qarşı apardığı mübarizə üsulu deyil. Amma Trampın nəzərdə tutduğu əgər lazım olarsa, ABŞ tərəfindən hərbi müdaxilə ilə bağlıdır. Həm Tramp, həm də Netanyahu düşünə bilər ki, indiki vaxt İsrail və ABŞ üçün məqbul vaxtdır. Venesuela hadisəsi də bunu göstərdi ki, hansı ölkəyə istəyirlərsə, ora hərbi müdaxilə edə bilərlər və heç bir beynəlxalq ictimaiyyət tərəfindən ciddi iradla qarşılaşmayacaqlar. Söhbət İranla bağlıdırsa, burada ümumiyyətlə Avropa ilə ABŞ-nin fikirləri üst-üstə düşür. Amma İran ətrafındakı ölkələrin - həm Türkiyə Respublikasının, həm də Səudiyyə Ərəbistanının son açıqlamaları göstərir ki, onlar dialoq yolu ilə məsələlərin həllinə çalışırlar. İran-ABŞ arasında dialoqda da xüsusi rol oynaya bilərlər. Hər bir halda hələki yekun qərar verilməyib. Amma istənilən an Tehrana zərbələrin endirilməsinə şahidlik edə bilərik. İndiyə kimi olan vəziyyət onu göstərir ki, ABŞ administrasiyası da müəyyən açıqlamalar verir. Hər bir açıqlaması birbiri ilə konkret olaraq hərbi müdaxilə olacaq ya olmayacaq sualına cavab verir. Düşünrəm ki, bununla bağlı hələki qərar qəbul edilməyib.

***-Zərbələr məsələsindən danışdıq. Britaniyanın Daily Mail nəşri yazır ki, ABŞ administrasiyasına İran ərazisində 50 mümkün hərbi hədəfi əhatə edən dosye təqdim olunub. Əgər ABŞ İrana hücum etsə, hansı obyektləri vura bilər?***

-Əminəm ki, Pentaqonda bununla bağlı hərbi plan var. Elə Venesuela lideri Maduronun evlərinin birinə əvvəlcədən planlaşdırılmış şəkildə ABŞ tərəfindən hücum edilməsi onu göstərir ki, onlar gözlədilər ki, Maduro məhz həmin evdə gecələsin. Həmin evə girdikdən sonra hücum etdilər. İran dini lideri ilə bağlı da belə bir planlarının olması istisna deyil. Vaşinqton üçün əgər hücum edilərsə, konkret olaraq hədəfə zərbə endirilməsi əsas nəticə kimi qarşıya qoyulur. Həm İsrail, həm də ABŞ tərəfi lazım olan müddətdə səbrlə gözlməyə qadirdir. Nüvə obyektlərinə gəldikdə, bundan əvvəl həmin obyektlərə zərbələr endirilib. İndiki halda nüvə obyektləri əsas hədəf olacaq yoxsa dini-teokratik hakimiyyətin dəyişilməsi. Belə görünür ki, dini-teokratik hakimiyyətin dəyişilməsi məsələsi əsas hədəfdir. Ondan sonra isə həm İranın neft-qazı, həm də nüvə obyektləri ilə bağlı İsrail və ABŞ istədiyini edə bilər. ABŞ-də Pəhləvi sülaləsinin aktivləşməsi, İsraillə bağlı verdiyi bəyanatlar da onu göstərir ki, İranda hakimiyyət dəyişikliyi ilə bağlı artıq qərar verilib. Sadəcə hələ siyasi sistem özünü müdafiə edir və dirəniş nümayiş etdirməkdədir.

***-Sizcə, İranda mövcud sistem gedərsə, hakimiyyətə hansı qüvvələr gələ bilər?***

-Bugünkü hadisələr göstərir ki, İranda ən legitim siyasətçi İran Prezidenti Məsud Pezeşkiandır. Pezeşkianın son açıqlamaları, prezident olmamışdan əvvəl və prezident olarkən öz baxış bucağı ilə həm daxili, həm də xarici siyasətdə heç bir dəyişikliyin olmaması göstərir ki, o sabit şəxsdir. Ən çox azərbaycanlılar tərəfindən qəbul edilir. Multikultural barış mövqeyindən çıxış edən, demokratik fikirlərə sahib olan şəxs kimi Pezeşkianın hakimiyyətdə qalması ən məqbuldur. Lakin okeanın o tayından verilən açıqlamalarda şahın oğlunun aktivləşməsinə də şahidlik etməkdəyik. Düşünürəm ki, Pəhləvinin də tərəfdarları var. Bunların ən çoxu miqrasiyada olan iranlılardır. Bunlar ABŞ və Qərb ölkələrində yaşayanlardır. Uzun müddətdir ki, Qərb təsisatları, bəlli mərkəzlər tərəfindən Pəhləvi ətrafında beyin mərkəzləri İrandakı dini-teokratik hakimiyyətə qarşı fəaliyyət göstərirdi. Amma bu ölkənin daxilində Pəhləvinin tərəfdarları o qədər də çox deyil. Bunu Tramp çox yaxşı bilir. Ona görə Venesuela variantından İranda da istifadə edilə bilər. Amma bu o demək deyil ki, biz sabah İranda rejimin tam dəyişməsinin görmüş olacağıq. Bununla bağlı hələlik fikir yürütmək çətindir. Bu birbaşa xarici müdaxilədən asılıdır.

***-Son olaraq İranda baş verənlərin qonşu dövlətlərə, ən əsası isə ölkəmizə nə kimi təsirləri ola bilər?***

-Ümumi götürdükdə birabaş olaraq Cənubi Qafqazdakı proseslərə təsir edə bilər. Həm İranda hakimiyyət dəyişikliyi, həm də hakimiyyətin indiki fiqurlarla davam etməsi Cənubi Qafqazdakı proseslərə bu və ya digər şəkildə təsir edəcək. Bu böyük Yaxın Şərq prosesidir. İranda bir qırılma bütün ətrafın siyasi, iqtisadi, hərbi, təhlükəsizlik konfiqurasiyasının qırılması və yenidən formalaşması demək olacaq. Sözsüz ki, əgər 1979-cu ildən başlamış uzunmüddətli hakimiyyət dəyişirsə, yeni ideologiya İrana qayıdırsa, bu qonşu ölkələr üçün nə demək olacaq? Ona görə də bu məsələyə hər kəs həssaslıqla yanaşır. Azərbaycan üçün bu məsələlər çox vacibdir. Kimlərsə böyük Azərbaycanın qurulmasını istəyir, kimlərsə bunu özlərinə təhdid kimi görür, kimlərsə də kürd faktorunu aktuallaşdırır və ona görə də İranda hakimiyyətin dəyişilməsini istəmir, buna qarşı çıxır. Bəlli məsələ ondan ibarətdir ki, molla rejimi hakimiyyətdən gedəcək. Buna görə qonşu ölkələr tələsməli, öz yol xəritəsini ortaya qoyaraq uzaq ölkələrin bölgədə öz dövlət maraqlarını həyata keçirməsi fonunda çalışmalıdırlar ki, region dövlətlərin də maraqları nəzərə alınsın.

***Anar Kəlbiyev***

02_27 IYUl-QARA.qxd 1/15/2026 8:54 PM Page 8



# Elman Rüstəmovun biznesi sürətlə batır

## Sabiq baş bankirə daha bir şok: indi də 9 milyonluq şirkəti ləğv edildi - Sensasiyalı təfərrüatlar!



***Bir il əvvəl lisenziyası geri alınan "Bakı Sığorta" Açıq Səhmdar Cəmiyyəti ləğv olunduğunu elan edib. Bu yaxınlarda məlum oldu ki, kreditorlardan iki ay ərzində tələblərini bildirmələri istənilib.***

Xatırladaq ki, "Bakı Sığorta" 1994-cü ildə "Tural Sığorta" adı ilə yaradılıb, 2007-ci ildə rebrendinq edib. Nizamnamə kapitalı 8 milyon 925 min 440 manatdır. Qanuni təmsilçisi Oqtay Pirmurad oğlu Şeydabəyovdur.

"Teleqraf.com"un məlumatına görə, lisenziyası geri alınmazdan bir il əvvəlki (2023) maliyyə ilini sığorta şirkəti 555 min manat mənfəətlə başa vurub. Cəmi gəlirləri 7,6 milyon manat olub. Həmin ildə 4,9 milyon manat sığorta haqqı toplayıb. Mərkəzi Bank lisenziyanın geri alınmasına səbəb şirkətin maliyyə dayanıqlılığının aşağı olmasını göstərib.

Qeyd edək ki, "Bakı Sığorta" ASC-nin səhmdarları "Bank Respublika" ASC, "Diamond Motors" MMC, "Ekolizinq" MMC, "Toyota Abşeron Center" MMC, "Yeni Motor" MMC, və 2 fiziki şəxsdir. "Bank Respublika" və "Toyota Abşeron Center"in Mərkəzi Bankın keçmiş sədri Elman Rüstəmova məxsus olduğu bildirilir.

Elə təxminən 9 milyon manatlıq şirkətin ləğvində diqqəti çəkən başlıca məqam da budur. Məsələ burasındadır ki, son iki ildə sabiq baş bankirin şəxsi biznesinin qürub etdiyi yönündə iddialar intensivləşib. Hələ ötən il Elman müəllimin maliyyə problemi yaşadığı və bu səbəbdən də Qax rayonundakı əmlaklarını satışa çıxardığı barədə xəbər yayılmışdı. Həmin vaxt yerli KİV-ə adıçəkilən rayondan daxil olan məlumatda bildirilirdi ki, keçmiş baş bankirə məxsus iri torpaq sahələri, villalar, obyektlər satışa qoyulub. O da vurğulanırdı ki, qeyri-rəsmi şəkildə E.Rüstəmova məxsus şirkətlərin külli miqdarda vergi borcu onu çıxılmaz vəziyyətdə qoyub və həmin vəziyyətdən çıxmaq üçün müxtəlif yollara baş vursa da, sabiq baş bankirin uzun müddətdir bu istiqamətdə bütün cəhdləri nəticəsiz qalmaqdadır.

Rüstəmovun maliyyə çətinliyi yaşadığına dair bir ildir davam edən xəbərlər fonunda qeyri-rəsmi şəkildə ona məxsus olduğu barədə iddialar irəli sürüldüyü "Əkinçi-Bo Fermer Təsərrüfatı" MMC və "Qarabağ Taxıl Aqro" MMC-nin ötən il noyabrda rəsmi şəkildə ləğv olunduqlarını elan etməsi də maraq doğururdu. Belə çıxırdı ki, Mərkəzi Bankın rəhbəri postundan uzaqlaşdırılmasının ardınca onun biznes imperiyasında işlər hələ də yolunda getmir.

Bundan başqa, Elman Rüstəmovun bankı kimi təqdim olunan "Bank Respublika"nın 2025-ci ilin ilk doqquz ayı üzrə maliyyə hesabatı da ürəkaçan deyildi. Belə ki, hesabata görə, bankın vaxtı keçmiş problemli kreditləri ötən ilin müvafiq dövrü ilə müqayisədə birdən-birə iki dəfə artmışdı: 2025-ci ilin 9 ayına görə vaxtı keçmiş kreditlərin həcmi 19 milyon 667,26 min manat olub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çox idi. Qeyd edək ki, adətən banklar hər zaman problemli kreditlərin həcmini rəsmi hesabatlarında real göstəricidən xeyli aşağı göstərməyə çalışırlar. Çünki məhz problemli kreditlərin çoxluğu istənilən bankın tənəzzülünün, böhranının ilkin, əsas əlaməti sayılır. Əgər belədirsə, sözügedən bankda hətta rəsmi hesabata görə belə, problemli kreditlərin kəskin şəkildə, sürətlə artması təhlükəli tendensiya kimi görünür. Bu, həmçinin bankın kredit siyasətinin qüsurlu olduğu və özünü doğrultmadığı qənaəti yaradır.

Bütün bu faktlar fonunda "Unikal" olaraq iki ay öncə yazmışdıq ki, sabiq baş bankirin biznesi ətrafında mənfi tendensiyalı prosesin haracan davam edəcəyini və nə ilə nəticələnəcəyini zaman göstərəcək. İndi isə Rüstəmova məxsus olduğu bildirilən 9 milyon manatlıq şirkətin ləğvi barədə xəbər həmin biznesin ağlasığmaz sürətlə "batdığını" söyləməyə əsas verir.

Xatırladaq ki, E.Rüstəmov 1992-ci ilin dekabrında Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. 1993-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi alıb. 1995-ci ilin yanvarında Prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib. Bundan sonra o, hər 5 ildən bir Milli Bankın İdarə Heyətinin sədri vəzifəsinə yenidən təyinat alıb.

Sonuncu belə təyinat 2020-ci ildə gerçəkləşib. Lakin 2 il sonra Rüstəmov baş bankir postu ilə vaxtından xeyli əvvəl vidalaşmalı olub. Düzdür, Mərkəzi Bankın rəhbəri postunu itirdikdən bir müddət sonra Baş nazir Əli Əsədov 13 aprel 2022-ci il tarixli sərəncamı ilə onu özünə müşavir təyin edib, lakin unudulmamalıdır ki, həmin vəzifə Elman müəllimin əvvəlki vəzifəsi ilə müqayisədə xeyli simvolik xarakter daşıyıb, ən əsası isə keçmiş baş bankirin biznesini çətinliklərdən qurtarmağa kifayət etməyib.

Nəinki kifayət etməyib, hadisələrin gedişatı Rüstəmova aid edilən şirkətlərin bir-birinin ardınca sıradan çıxdığını göstərir. Belə davam edərsə, Mərkəzi Bankın sabiq rəhbərinin tezliklə yalnız xaricdəki biznesinin ümidinə qalacağına dair proqnozların doğrulacağı barədə düşünmək üçün əsas yaradır. O ayrı məsələdir ki, vaxtilə tutduğu mühüm post sayəsində ölkə daxilində sahibləndiyi imtiyazları itirən Elman müəllim ölkədən kənardakı şirkətlərini hansı qaynaqlar hesabına ayaqda tuta bilər...

***Sənan Mirzə***



## Deputatların tətili bitdi, komitə iclasları başlayır

***Azərbaycan Milli Məclisinin deputatlarının tətili başa çatır.***

"Unikal" xəbər verir ki, Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, qanunverici orqanının üzvlərinin tətili yanvarın 1-dən 15-dək davam edir.

Bu gündən komitə iclaslarının keçirilməsinə başlanılacaq. Yanvarın 16-da Ailə, qadın və uşaq komitəsinin və Regional məsələlər komitəsinin iclası keçiriləcək.

Qeyd edək ki, səlahiyyəti dövründə Milli Məclis ildə iki dəfə - iyul ayının 15-dən avqust ayının 30-dək və yanvar ayının 1-dən 15-dək tətilə buraxılır.

Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Milli Məclis hər il yaz və payız sessiyalarına yığılır. Yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir. Payız sessiyası sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir.

Fevralın 1-i və sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır. Bu il fevralın 1-i bazar gününə düşdüyündən plenar iclas fevralın 2-də keçiriləcək.

## Azərbaycanda pensiyaların artırılması ilə bağlı rəsmi açıqlama



***Ötən il Dövlət Sosial Müdafiə Fondunun (DSMF) xərcləri əvvəlki ilə nisbətən 9 faiz və ya 629 milyon manat artaraq 7, 5 milyard manat təşkil edib.***

"Unikal" xəbər verir ki, bunu DSMF-nin İdarə Heyətinin sədri Zəka Mirzəyev fondun 2025-ci ilin yekunları və 2026-cı ilin hədəflərinə dair mətbuat konfransında çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, orta aylıq pensiya ötən il daha 9 faiz artaraq 543 manata, o cümlədən yaşa görə orta aylıq pensiya 578 manata çatıb. Pensiyalardakı artım dinamikası bu il də davam edəcək.

## Naxçıvanda ölən tələbə iş adamının qızı imiş



***Xəbər verdiyimiz kimi, Naxçıvan Dövlət Universitetinin Türkiyədən olan iki tələbəsi dünyasını dəyişib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, onlardan biri - tibb ixtisası üzrə təhsil alan II kurs tələbəsi Büşra Aksu əslən Türkiyənin Ordu şəhərinin Altınordu rayonundandır.

Tələbə Orduda tanınmış iş adamı Sezai Aksunun qızıdır.

Xatırladaq ki, tələbələr ötən gün dəm qazından zəhərlənərək ölüblər.

***Ağarza Elçinoğlu***

02_27 IYUI-QARA.qxd 1/15/2026 8:54 PM Page 9





Zaur Əhməd

# Qəhrəmanın halal haqqı...

***Mənə görə insanlar üç cür olur. Bir qism yalnız özü üçün yaşayır. Bütün həyatını öz rahatlığını, zənginliyini, gələcəyini təmin etməyə həsr edir. İkinci qism ailəsi, sevdikləri üçün yaşayır. Onlar da bütün səylərini yalnız ətrafındakıların rahatlığına yönəldir. Amma bir də var ki, vətən, xalq, dövlət üçün yaşayanlar... Bax, mənə görə ən dəyərli insanlar məhz onlardır.***

Bu kateqoriyaya aid edilə biləcək insanlar çox azdır. Nadir ziyalımız olub ki, qələminin yazdığı ilə ürəyinin hökmü üst-üstə düşsün. Çox nadir dövlət adamı tapılıb ki, xalqın balasını öz balasından ayırmayıb, xalqın malını öz malına qatmayıb, harama bulaşmayıb. Tarixdə belə adamlar bəlkə də barmaqla sayılacaq qədərdir.

Lakin bu dəyərli insan kateqoriyasına aid böyük bir ordumuz var - Şəhidlər Ordusu. Şəhidlər başqalarının yaşaması üçün öz canlarından keçənlərdir.

Dövlət Himnimizdə deyildiyi kimi:
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu.



İnsanın ən böyük, ən vacib və ən dəyərli hüququ yaşamaq hüququdur. Şəhidlər isə bu hüquqdan Vətən, xalq və dövlət yolunda könüllü şəkildə keçirlər. Bu ifadə bir neçə sözdən ibarət sadə cümlə kimi görünsə də, arxasında minlərlə insanın ağrı-acısı, bir millətin zədələnmiş şərəfi, bir dövlətin sarsılmış qüdrəti dayanır.

Şəhidlər canlarını fəda etməklə öz yaxınlarını ömürlük ağrı-acı ilə baş-başa buraxsalar da, xalqının başını dik, bayrağını uca, vətənini bütöv, dövlətini qüdrətli edirlər.

Azərbaycan tarixinin ağrılı-acılı günləri az deyil. Amma şanlı, zəfərli, qürurlu səhifələri də var. Bu səhifələr məhz həmin şəhidlərin canı və qanı bahasına yazılıb.

2016-cı ilin Aprel döyüşləri də tariximizin belə şanlı səhifələrindən biridir. Bu tarix onlarla qəhrəman şəhidimizin qanı ilə yazılıb, şanlanıb. O qəhrəmanlardan biri də adını hərb tariximizə hələ Aprel döyüşlərindən xeyli əvvəl “Murov qartalı” kimi yazdırmış şəhid polkovnik-leytenant Raquf Orucovdur.

Raqufla şəxsi tanışlığım Aprel döyüşlərindən bir neçə il əvvələ gedib çıxır. Adam kimi adam, komandir kimi komandir idi. Onun barəsində çox şey demək, çox şey yazmaq olar. Amma buna ehtiyac yoxdur. Çünki o, artıq Azərbaycan xalqının qəlbində taxt qurmuş, xalq tərəfindən milli qəhrəman kimi qəbul olunmuş igidlərdəndir.

Qarşıdan Aprel döyüşlərinin 10-cu ildönümü gəlir. Məncə, bu qəhrəmanlıq səhifəsinin yazılmasının 10-cu ildönümündə Raquf Orucova halal haqqı olan Azərbaycanın Milli Qəhrəmanı adı verilməlidir. İnanıram ki, Ali Baş Komandan müvafiq sərəncam imzalayaraq xalqımızın qəhrəmanının bu adını rəsmiləşdirəcək.

Onsuz da Raquf Orucov qəhrəman kimi yaşayıb, qəhrəman kimi də dünyadan köçüb. Düşünürəm ki, qəhrəman kimi anılması da onun halal haqqıdır - şəhid anasının ona verdiyi halal süd kimi...

# Bəzi rektorlar qorxu içində

## Məmur həbsləri bir sıra universitet rəhbərlərinə çata bilər: hansı ali məktəblərdə yoxlama təlaşı yaşanır? - İlginc iddialar...

***Azərbaycandakı bəzi dövlət ali təhsil müəssisələrində maliyyə şəffaflığının şübhə altında olduğuna dair son vaxtlar çox saylı məlumatlar yayılırdı. Həmin məlumatlardan belə aydın olurdu ki, sözügedən müəssisələrdə maliyyə riskləri və büdcə vəsaitlərinin istifadəsində səmərəliliklə bağlı ciddi şübhələr var. O da vurğulanırdı ki, müvafiq yoxlamalar həmin şübhələrdə həqiqət payının kifayət qədər yüksək olduğunu ortaya çıxara bilər.***



Və yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Azərbaycan Memarlıq və İnşaat Universitetində audit həyata keçirilib. Belə ki, Hesablama Palatasından verilən məlumata görə, qurumdan sözügedən auditin Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən 2025-ci ilin İş Planına əsasən aparıldığı bildirilib.

Modern.az-ın xəbərinə görə, o da məlum olub ki, proses yalnız bir universitetlə məhdudlaşmayacaq. Əldə olunan məlumata görə, bu, ali təhsil müəssisələrində şəffaflığın yoxlanılması üçün başladılan genişmiqyaslı monitorinqin ilk addımıdır. AzMİU-dan sonra növbəti aylarda digər dövlət universitetlərində də maliyyə yoxlamalarının və dövlət vəsaitlərinin istifadəsi ilə bağlı auditlərin aparılması gözlənilir.

Ekspertlər hesab edir ki, bu audit dalğası universitetlərin büdcə xərcləmələrindəki boşluqları üzə çıxarmaq və maliyyə intizamını gücləndirmək məqsədi daşıyır.

Bütün bu deyilənlərdən belə aydın olur ki, yaxın aylarda bir sıra dövlət ali təhsil müəssisələrində ciddi maliyyə pozuntularının ortaya çıxması kifayət qədər realdır. Əslində, sözügedən pozuntuların aşkarlanması heç də sürpriz sayılmayacaq; çünki bir sıra universitetlərdə ölkə miqyaslı şəffaflıq və hesabatlılıq prosesinə dırnaqarası münasibət bəsləndiyi kimsəyə sir deyil. Belə düşünməyə ən azından mərkəzi mediada bəzi dövlət ali təhsil müəssisələri ilə bağlı ard-arası kəsilməyən xəbərlər əsas verir. Məsələn, Azərbaycan Texniki Universiteti (Az.TU) ilə bağlı bir müddətdir mətbuatda ciddi ittihamlar səsləndirilir. Bu universitetdə hazırkı rektorun - Vilayət Vəliyevin yaxın qohum-əqrəbalarına müxtəli vəzifə verməsindən tutmuş Az.TU xətti ilə keçirilən tenderlərin ədalətliliyinə dair çeşidli iddialar səsləndirilir. Lakin qarşı tərəf həmin iddialar barəsində indiyədək hər hansı mövqe açıqlamayıb.

Yaxud, Gəncə Dövlət Universitetində (GDU) rüşvət və korrupsiya halları haqqında ölkə mətbuatında yer alan iddia və ittihamların nə sayı var, nə hesabı. Elə bu günlərdə adı çəkilən ali təhsil müəssisəsində qış imtahan sessiyasının pulyığma vasitəsinə çevrildiyi barədə istər KİV-də, istərsə də sosial şəbəkələrdə yetərincə məlumat oxumaq mümkündür. Hələ ötən il GDU-nun Tələbələrin qeydiyyatı və dövlət nümunəli sənədlərlə iş sektorunun müdiri Qüdrət Verdiyevin məzun olmuş tələbələrdən rüşvət almasını əks etdirən kadrlar yayılmışdı. Kadrlardan pul vəsaitinin tələbələrdən diplomlarını götürmələri üçün tələb olunduğu başa düşülürdü. O zaman GDU-dan bildirilmişdi ki, Q. Verdiyev artıq öz ərizəsi ilə işdən çıxıb. Lakin bu günlərdə müxtəlif media orqanlarında yazılanlardan və həmin yazılanlara qarşı tərəfin reaksiyasızlığından belə anlaşılır ki, sözügedən universitetin mövcud rəhbərliyi bu ali təhsil müəssisəsinin uzun illərdir korlanmış imicinin düzəldilməsi istiqamətində konkret işlər görməkdə acizdir, üstəlik, GDU-da “köhnə hamam, köhnə tas” prinsipi biriləri üçün vazkeçilməz olaraq qalır.

Başqa bir nümunə olaraq Lənkəran Dövlət Universitetini (LDU) göstərmək olar. Adını çəkdiyimiz ali təhsil ocağı da illərdir neqativ xəbərlərlə ölkə mediasının gündəmini “ovsunlamağa” davam edir. Ötən ilin martında Azərbaycan mediasında yayılan xəbərlərdən aydın olurdu ki, LDU tələbələri yeni tətbiq olunan imtahan və gecikmə sistemindən narazıdır. Onların iddialarına görə, bu sistem nəticəsində universitet rəhbərliyi tələbələrdən faktiki olaraq rəsmi şəkildə rüşvət yığır. Məlumata görə, imtahanların çətinləşdirilməsi və alt qrup mexanizmi tələbələri əlavə ödəniş etməyə vadar edir. Hər il təxminən 10 min tələbə tədris mövsümünün sonunda universitetə yüksək məbləğdə pul ödəmək məcburiyyətində qalır. Bundan başqa, universitet rəhbərliyinin tələbələrin problemlərinə laqeyd yanaşdığı bildirilirdi. İndi isə LDU-da baş alıb gedən neqativ halların aradan keçən müddətdə nəinki aradan qaldırılmadığı, üstəlik, daha da dərinləşdiyi iddia edilir.

Yuxarıdakı nümunələrin sayını kifayət qədər artırmaq olar. Reallıq bundan ibarətdir ki, bir çox dövlət ali təhsil müəssisələrinin rəhbərləri onlara göstərilən etimadı doğrultmaqda faktiki olaraq acizdirlər və bəzi universitetlərdə “bazar qanunları” at oynadır. Hesablama Palatasının start verdiyi yoxlama dalğasının bu mənada kifayət qədər önəm daşıdığını və müəyyən rektorların kürkünə elə indidən “birə” saldığını əminliklə söyləmək mümkündür. Sözügedən yoxlamalar zamanı bəzi universitetlərdə ciddi maliyyə pozuntularının ortaya çıxması da sürpriz sayılmayacaq.

Bir az da konkretləşdirsək, rüşvətxorluğa və korrupsiyaya qarşı genişmiqyaslı mübarizə tədbirləri çərçivəsində xüsusilə son vaxtlar intensivləşmiş məmur həbsləri fonunda bir müddət sonra müəyyən rektorların da cinayət məsuliyyətinə cəlb edildiyinə dair xəbərlər oxusaq, gərək təəccüblənməyək...

***Toğrul Əliyev***

02_27 IYUI-QARA.qxd 1/15/2026 8:54 PM Page 10



# Keçmiş məmur-oliqarxların rayon sevdası

## Hansı sabiqlər vəzifələrini itirdikdən sonra paytaxtı tərk ediblər?

***Uzun illər Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsini tutmuş Hacıbala Abutalıbov paytaxtdan köçüb. Bu barədə “Gununsesi.info”ya onun ailə üzvləri bildirib.***

Məlumata görə, keçmiş mer Qaxın Ağçay kəndində özü üçün inşa etdirdiyi kiçik villada yaşayır.

Onun bu kəndə köçməsinə səbəb isə həyat yoldaşının məhz Ağçaydan olmasıdır.

Yaxınları deyi ki, Hacıbala Abutalıbov təsadüfi hallarda kənd arasında olur.

“Yaşlanıb, özü üçün həyət-bacada gəzir” , - deyə yaxınları bildirib.

“Unikal”ın araşdırmasına görə, Abutalıbov Bakıdan rayona köçən ilk sabiq məmur-oliqarx deyil. Onlardan biri hazırda 73 yaşı olan sabiq nəqliyyat naziri Ziya Məmmədovdur. Məmmədov “vurulduqdan” sonra doğulduğu Ucar rayonu Qazıqumlaq kəndinə köçüb. Hazırda əsas biznesi ölkədən kənarda və oğlu Anar Məmmədovun idarəçiliyi altında olan keçmiş nazir Ucarda kənd təsərrüfatı ilə məşğuldur. Bir neçə il əvvəl mətbuata açıqlamasında bildirmişdi ki, mal-qara saxlayır, arpa-buğda əkir, çünki dolanmaq lazımdır. Eks-nazirin bu açıqlaması həmin vaxt geniş əks-səda doğurmuş, daha çox isə istehza ilə qarşılanmışdı. Vəzifədə ikən ölkənin ən korrupsiyalaşmış, oliqarxlaşmış məmurlarından biri olan Ziya müəllimin guya kasıblayaraq, dolanışıq üçün iri və xırdabuynuzlu heyvan saxlamağa məcbur olması, arpa-buğda, yonca əkməsi, ən əsası da vaxtilə milyardlarla dövlət vəsaitini mənimsəyən sabiq nazirin “dolanmaq çətindir” deməsi sadə vətəndaşlarda haqlı olaraq, onları dolamaq kimi anlaşılmış, kinayə və ikrah dolu fikirlərin səslənməsinə yol açmışdı.

Onu da deyək ki, Z.Məmmədov hazırda Qazılqumlaq kəndində ”M” hərfi şəklində inşa edilən villada yaşayır. Malikanənin yerləşdiyi ərazidə hovuz, uşaq meydançası, müxtəlif ağaclardan ibarət bağ, gümbəzəoşxar kotteclər, ayrıca bir kiçik villa da mövcuddur.

Bu il 65 yaşı tamam olacaq sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun isə Ağsu rayonunun Pirhəsənli kəndindəki malikanəsinə köçdüyü barədə iddialar var. Həmin iddialara görə, Müslümov ilin 9 ayını burada yaşayır, yalnız qış aylarında paytaxta gəlir. O da bildirilir ki, Səlim müəllim doğulduğu rayona vəzifədən azad edildikdən sonra yox, həbsdən azad edildikdən sonra daşınıb.



Xatırladaq ki, Müslümov 2021-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunmuşdu. Ona qarşı Cinayət Məcəlləsinin 179.4 ( xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma) maddələri ilə ittiham irəli sürülmüşdü. Sabiq nazir 13 ay həbsdə qaldıqdan sonra ev dustaqlığına buraxılmışdı. İstintaq müddətində dövlətə dəymiş 27 milyon manat ziyanın 20 milyonu ödənilmişdi.

2024-cü ildə Müslümova Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 5 il sınaq müddəti seçilməklə 11 il şərti cəza verilmişdi. Elə o vaxtdan da Səlim müəllimin meylini doğma rayonuna saldığı deyilir. Bildirilir ki, 11 il Dövlət Sosial Müdafiə Fondunun rəhbəri, 5 il isə əmək və əhalinin sosial müdafiəsi naziri işləmiş Müslümov şərti məhkumluğu müddətində ölkədən çıxa bilməz. Bundan başqa, onun müsadirəsinə qərar verilmiş 8 milyonluq əmlakları dövlət nəfinə alınıb.

Vəzifəsini itirdikdən (2018) 3 il sonra başına gələnlərin, həbs həyatı yaşamasının, varidatını və biznesini böyük ölçüdə itirməsinin Müslümova çox pis təsir etdiyi, bu səbəbdən cəmiyyət arasında görünməkdən qaçdığı, tam qapalı həyat keçirməyə başladığı, elə ona görə də paytaxtdan uzaqlaşdığı iddia edilir.

Araşdırmalarımız zamanı məlum oldu ki, mərhum vergilər naziri Fazil Məmmədov da bu postu itirdikdən sonra Bakını tərk edibmiş. 2017-ci ildə17 il tutduğu postdan kənarlaşdırılan mərhum nazirin bir müddət sonra uzun müddət kurasiya etdiyi Şəmkirdəki villasına yerləşdiyi, ilin müəyyən müddətində isə doğulduğu Şamaxıda qaldığı deyilir.

4 il işsiz və Bakısız yaşadıqdan sonra 2022-ci ildə uzun sürən ağır xəstəlik səbəbi ilə vəfat edən F.Məmmədovun Şəmkirdə olarkən özünə məxsus “Excelsior Hotel Shamkir”də iş ofisi yaratdığı, biznesini də elə oradan idarə etdiyi vurğulanır.

Görünən odur ki, sabiq məmur-oliqarxların bəziləri vəzifələrini itirincə ölkə xaricinə üz tutursa (məsələn, sabiq iqtisadi inkişaf naziri Heydər Babayev kimi!), bəziləri Bakıda qalmağı seçirsə, bəziləri də tamamən gözdən-könüldən uzaq olmağa, paytaxtdan uzaqlaşmağa üstünlük verirlər. Bunun müxtəlif səbəbləri ola bilər, lakin şübhəsiz ki, həmin səbəblərdən biri də belə sabiqlərin artıq öz vəzifə karyeralarını bərpa edəcəklərinə ümidlərinin qalmaması, unudulmağa, beləcə, vəzifədə ikən yol verdikləri korrupsiya əməllərini, həmin əməllər sayəsində topladıqları var-dövləti unutdurmağa çalışmasıdır...

***Toğrul Əliyev***

# Bəzi qanunlarda dəyişiklik edildi



***Prezident İlham Əliyev Milli Məclisin dekabrın 16-da qəbul etdiyi Mülki və Ticarət Gəmiçiliyi məcəllələrində, eləcə də ”Nəqliyyat haqqında” və ”Avtomobil nəqliyyatı haqqında” qanunlarda dəyişiklik edilməsi haqqında qanunu təsdiqləyib.***

”Unikal” xəbər verir ki, sənəd ”Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında” qanun layihəsindən irəli gələrək hazırlanıb, uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsini əhatə edir.

Belə ki, ”Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında” qanun layihəsində nəqliyyat-ekspertiza fəaliyyəti sahəsində pretenziya və iddia məsələləri (7-ci fəsil) tənzimləndiyindən, daşıyıcıya (1.1.1.-ci maddə) və ekspeditora (1.1.2-ci maddə) yeni məzmunda anlayışlar verildiyindən və eləcə də qanun layihəsinin bir sıra normalarının tələblərindən irəli gələrək Mülki Məcəlləyə və Ticarət Gəmiçiliyi Məcəlləsinə müvafiq dəyişikliklər təklif olunur.

İndiyə qədər nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsinə dair münasibətlər əsasən Mülki Məcəllə, Ticarət Gəmiçiliyi Məcəlləsi və ”Nəqliyyat haqqında” qanunla tənzimlənib. ”Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında” qanunla bu sahənin qanunvericilik bazası genişlənir və təkmilləşdirilir. Bundan irəli gələrək dəyişiklik təklif olunan hər bir qanunda nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi ilə bağlı münasibətləri tənzimləyən qanunların dairəsi əks etdirilir (normativ hüquqi çərçivə müəyyən edilir). Bu cür dəyişiklik nəqliyyat-ekspedisiya xidmətləri sahəsində münasibətləri tənzimləyən qanunvericilik aktları arasında əlaqələndirmənin yaradılmasına və hüquq tətbiq etmə praktikasında yarana biləcək məsələlərin tənzimlənməsinə imkan yaradır.

# Sosial yardımın verilməsi ilə bağlı saxta elanlar yayılıb




***Son günlər sosial şəbəkələrdə “mygov” platformasının adından “2026-cı il üzrə 1500 manat məbləğində ünvanlı dövlət sosial yardımının verilməsi” ilə bağlı elanlar yayılıb.***

”Unikal” xəbər verir ki, bu barədə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) məlumat yayıb.

Bildirilib ki, bu məlumatlar saxtadır və həqiqəti əks etdirmir. Sözügedən paylaşımların “mygov” platforması ilə heç bir əlaqəsi yoxdur.

Qeyd olunan paylaşımlar dələduzluq məqsədi daşıyır, vətəndaşları çaşdırmağa, onları saxta keçidlər vasitəsilə fərdi məlumatlarını paylaşmağa təşviq edir.

Vətəndaşları ayıq-sayıq olmağa, saxta məlumatlara, şübhəli paylaşımlara və naməlum linklərə aldanmamağa, etibarlı məlumatlar üçün yalnız “mygov”un rəsmi kanallarını izləməyə çağırırıq.

# Temperatur 8 dərəcə enəcək, qar yağacaq

***Yanvarın 17-si gündüzdən 22-dək ölkə ərazisində hava şəraitinin yenidən yağıntılı olacağı, bəzi ərazilərdə sulu qar, dağlıq və dağətəyi rayonlarda isə qar yağacağı gözlənilir.***

Bu barədə ”Unikal”a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.”Yağıntıların ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimal olunur. Bəzi ərazilərdə şimal-qərb küləyinin güclənəcəyi gözlənilir”, - Xidmətin rəis müavini Gülnarə Abbasova bildirib.

O qeyd edib ki, bu müddət ərzində Bakıda və Abşeron yarımadasında da havanın yağıntılı olacağı və yağıntıların sulu qara keçəcəyi gözlənilir: “Havanın temperaturu ölkə ərazisində ötən günlərlə müqayisədə tədricən 5-8 dərəcə enərək, minimal temperatur Bakıda və Abşeron yarımadasında 0-2 dərəcə isti, dağətəyi rayonlarda 3 dərəcəyədək, dağlıq rayonlarda 5-10, yüksək dağlıq ərazilərdə isə 15-20 dərəcə şaxta olacaq. Dağlıq və dağətəyi rayonlarda bəzi yollar buz bağlayacaq”.

02_27 IYUl-QARA.qxd 1/15/2026 8:54 PM Page 11



# "Qaçqınkom" keçmiş məcburi köçkünün iddialarına aydınlıq gətirdi



***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ("Qaçqınkom") keçmiş məcburi köçkün Orxan Fətəliyev sosial şəbəkələrdə Dövlət Komitəsinin qəbul otağından video paylaşaraq müraciətlərinə baxılmaması ilə bağlı iddialara aydınlıq gətirib.***

"Unikal" xəbər verir ki, bu barədə Komitə məlumat yayıb.

"Bununla əlaqədar olaraq bildiririk ki, Zəngilan rayonunun Məmmədbəyli kəndindən keçmiş məcburi köçkün Fətəliyev Orxan Məhəmməd oğlu ailə üzvləri ilə birlikdə Bakı şəhəri Binəqədi rayonu Biləcəri şossesində qanunsuz inşa edilmiş şəxsi mənzildə məskunlaşıb. İşğaldan azad edilmiş ərazilərə ilk növbədə qəzalı vəziyyətdə və ağır şəraitdə yataqxana, sanatoriya, düşərgə kimi müvəqqəti məskunlaşma obyektlərində yaşayan ailələr köçürülür. Orxan Fətəliyevin isə yaşayış şəraitinin normal olduğunu nəzərə alaraq, onun Məmmədbəyli kəndinə köçürülməsinə yeni evlər tikildikdən sonra növbəti mərhələlərdə qanunvericiliyə uyğun olaraq yenidən baxılacaq.

Orxan Fətəliyevin müraciətlərinə baxılmaması haqqında dedikləri isə həqiqəti əks etdirmir. Belə ki, onun Dövlət Komitəsinə yazılı müraciəti 19 dekabr 2025-ci ildə müvafiq qaydada cavablandırılıb və vətəndaşın ünvanına göndərilib. Eləcə də, o, bir neçə dəfə rəhbər şəxslərin qəbulunda olub. Ötən gün Dövlət Komitəsində olarkən də aidiyyəti struktur bölmənin rəhbəri tərəfindən qəbul edilib və müraciəti ilə əlaqədar ona müvafiq izahat verilib.

Nəzərinizə çatdırırıq ki, Orxan Fətəliyevin atası Məhəmməd Fətəliyev digər oğlu ilə birlikdə Zəngilan rayonunun Məmmədbəyli kəndində ailə tərkibinə uyğun olaraq 4 otaqlı mənzillə təmin edilib".

# Məcnun Məmmədov Emeliya Arturla görüşdü



***Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov İsraildə keçirilən Sea the Future: II Mavi Qida Təhlükəsizliyi Qlobal Sammiti çərçivəsində Qana Respublikasının balıqçılıq və akvakulturanın inkişafı naziri Emeliya Artur ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş zamanı nazirlər Azərbaycan və Qana arasında müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, aqrar məhsulların ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın mövcud olduğunu vurğulayıblar. Qeyd olunub ki, ikitərəfli əlaqələrin gücləndirilməsi hər iki ölkənin maraqlarına cavab verir və uzunmüddətli, dayanıqlı iqtisadi əməkdaşlığa zəmin yaradır.

Nazir Emeliya Artur Qananın Azərbaycanla ilk növbədə akvakultura sahəsində əməkdaşlıqda maraqlı olduğunu bildirib, bu istiqamətdə birgə layihələrin həyata keçirilməsi üçün geniş perspektivlərin mövcudluğunu diqqətə çatdırıb.

Nazir Məcnun Məmmədov isə qeyd edib ki, Azərbaycan Respublikası Afrika dövlətləri ilə müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı sahəsində əməkdaşlığı ardıcıl şəkildə genişləndirir. Son dövrlərdə bir sıra Afrika ölkələri ilə aqrar sahə üzrə əməkdaşlıq memorandumlarının imzalandığını xatırladan nazir, Qana Respublikası ilə də analoji sənədin imzalanmasını, həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlıq perspektivlərinin müəyyən edilməsi məqsədilə birgə işçi qrupunun yaradılmasını təklif edib. Məcnun Məmmədov əlavə olaraq Azərbaycanın aqrar sahədə tətbiq etdiyi qabaqcıl texnologiyaları və formalaşmış təcrübəni Qana tərəfi ilə bölüşməyə hazır olduğunu bildirib.

Görüşdə, həmçinin aqrar təhsil sahəsində əməkdaşlıq, qanalı gənclərin Azərbaycan Dövlət Aqrar Universitetində təhsil alması imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Zakir Qaralova yubiley şoku

## Sabiq Baş prokurorun 70 yaşının tamam olduğu gün niyə kefi olmayıb?

***Bir neçə gün öncə - yanvarın 13-də sabiq Baş prokuror Zakir Qaralovun 70 yaşı tamam olub. Onun yubiley yaşı ailəsinin və yaxın dostlarının əhatəsində Bakıdakı restoranlardan birində keçirilib. Bu barədə "Unikal"a məlumatlı mənbə bildirib. Mənbənin sözlərinə görə, yubiley günündə Qaralovun kefi heç də yaxşı olmayıb.***

Belə ki, sabiq Baş prokuror 70 yaşı münasibətilə yüksək dövlət ordenlərindən biri ilə təltif ediləcəyini gözləyib. Ancaq onun gözləntisi elə gözlənti olaraq da qalıb.

Qeyd edək ki, 2016-cı ildə 60 yaşının tamam olması münasibətilə elə yanvarın 13-də, yəni doğum günündə "Şöhrət" ordeni verilib. 2006-cı ildə - 50 yaşının tamam olduğu il isə Qaralov "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdi. Lakin bu təltif onun yubileyinin üstündən xeyli keçəndən sonra - sentyabrda baş tutmuşdu. Sabiq Baş prokuror 70 yaşının tamamında da yüksək təltifə ümid edib, lakin yuxarıda da yazdığımız kimi, onun ümidi doğrulmayıb.



Xatırlada ki, Zakir Bəkir oğlu Qaralov Gürcüstan Respublikasının Dmanisi rayonunun Ormeşən kəndində anadan olub. 1979-cu ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirdikdən sonra prokurorluq orqanlarına işə qəbul edilib. 1981-ci ilədək Bakı şəhəri Səbail rayon prokurorunun köməkçisi, 1981-2000-ci illərdə Baş Prokurorluğun Ümumi nəzarət şöbəsinin prokuroru, böyük prokuroru, Bakı şəhəri Nəsimi rayon prokurorunun müavini, Nəsimi rayon prokuroru, Baş Prokurorluğun Milli təhlükəsizlik orqanlarında istintaqa nəzarət şöbəsinin, Ümumi nəzarət idarəsinin prokuroru və böyük prokuroru, Sabunçu rayon prokuroru, Gəncə şəhər prokuroru vəzifələrində işləyib.

25 aprel 2000-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilib. Ona I dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilib.

Ailəlidir, iki övladı var.

Qeyd edək ki, təxminən 6 il öncə - 2020-ci il mayın 1-də Qaralovun Respublika Prokurorluğunda nə az, nə çox - düz 20 il sürən rəhbərliyinə son qoyulub. Onun işdən çıxarılması ilə qanunların icra və tətbiq olunmasına nəzarət edən ən mühüm dövlət qurumunda rəhbərlik dəyişib. Yəqin ki, özünə qalsaydı, 20 il eyni vəzifədə olmağına rəğmən istefa verməz və daha 5 il müddətinə də qalıb işləyərdi.

Zakir Qaralovun 20 il eyni vəzifədə qalmasına ictimaiyyət birmənalı münasibət bəsləmirdi və o, təqaüdə yola salınanda bunu gecikmiş addım hesab edənlər az olmadı. Onun dönəmində bir sıra hay-küylü hadisələr baş verib və onun həmin olaylara reaksiyası keçmiş Baş prokurora münasibət formalaşdırıb. Qaralovun personası ətrafında tez-tez mübahisəli fikirlər dolaşıb. Zakir Qaralovun təqaüdçü hüquqşünas kimi hazırda Bakıda olduğu və özünə məxsus biznes strukturlarının idarəetməsilə məşğul olduğu bildirilir. Bu biznes strukturları dərman biznesindən tutmuş, mebel və bir sıra xarici məhsulların idxalına qədər fərqli sahələri əhatə edir. Hərçənd, Qaralovun "vurulmasından" sonra onun biznesi heç də yaxşı günlərini yaşamır. Zakir müəllimə məxsus şirkətlər əvvəlki nəhəng qazanclarından uzaqdırlar, borc içindədirlər, hətta zaman-zaman bu şirkətlərdə çalışanların aylarla maaş ala bilmədikləri, ona görə də məhkəməyə üz tutmaq məcburiyyətində qaldıqları barədə məlumatlar yayılır. Belə məlumatlar indiyədək qarşı tərəfdən təkzib edilməyib.

Onu da deyək ki, sabiq baş prokuror illər sonra yalnız ötən ilin dekabrında görünüb. O, keçmiş müavini, haqqında çoxsaylı iddialar və ittihamlar dolaşan Rüstəm Usubov və sabiq mətbuat katibi Eldar Sultanovla birgə Fəxri xiyabanda Heydər Əliyevin məzarını ziyarət edib. Həmin vaxt Qaralov qısa açıqlamasında deyib ki, bu günlər xalqımız Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar onun əziz və unudulmaz xatirəsini hörmət və dərin ehtiramla yad edir.

Sabiq Baş prokuror vəzifədən kənarlaşdırılınca yayılan məlumatlardan birində onun Gürcüstana səfir getmək istədiyi vurğulanırdı. Məsələ burasındadır ki, əvvəllər Azərbaycanda belə təcrübədən istifadə olunurdu: yüksək vəzifələrdən azad edilən sabiqlər xarici ölkələrə səfir getməyə çalışır və bir sıra hallarda buna nail də olurdular. Lakin son illərin təcrübəsi belə deməyə əsas verir ki, həmin ənənəyə son qoyulub. Sabiqlər daha səfir göndərilmirlər. Elə ona görə də Qaralovun doğulduğu ölkəyə səfir gemək niyyəti baş tutmadı. Bununla belə, bəziləri hətta məlum təcrübə davam etsəydi də, keçmiş Baş prokurorun səfir göndərilməsinin mümkünsüzlüyünü vurğulayırlar. Zakir Qaralovun 70 yaşının tamamında böyük həvəslə gözlədiyi dövlət təltifini ala bilməməsi də yuxarıdakı fikrin təsdiqi sayıla bilər.

***Toğrul Əliyev***

02_27 IYUl-QARA.qxd 1/15/2026 8:55 PM Page 12



## 5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətəndaş cəmiyyətinin inkişafında yeni "pəncərə"

## Zaur İbrahimli: "QHT-lərə maliyyə dəstəyinin vahid mərkəzdən, "bir pəncərə" prinsipi ilə həyata keçirilməsi ayrı-ayrı dövlət qurumlarının ayırdığı qrantlarda şəffaflığı təmin edəcək"

***Ötən ay Prezident İlham Əliyev QHT Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi fərman və sərəncamlarda dəyişiklik edilməsi haqqında Fərman imzaladı.***

Sözügedən fərman bir daha təsdiq etdi ki, dövlət-vətəndaş cəmiyyəti münasibətlərində koordinasiyanın gücləndirilməsi təmin olunur. QHT-lərə maliyyə dəstəyinin vahid mərkəzdən, İdarə Heyətinin üzvü Zaur İbrahimli "Unikal" qəzetinə müsahibəsində bildirib ki, yeni Fərmanın əsas mahiyyəti QHT-lərə qrantların ayrılmasında şəffaflığın təmin olunmasıdır.

Həmsöhbətimiz deyir ki, indiyədək dövlət qurumları QHT-lərə layihələri sərbəst şəkildə ayırırdı. Nəticədə bu sahədə pərakəndəlik, müxtəlif dövlət qurumları tərəfindən eyni layihələrə görə təkrar vəsait ayrılması, dublikat, planlaşdırılmamış xərclər və səmərəsizlik halları yaranırdı. Bundan sonra isə dövlət qurumları ilə birgə fəaliyyət nəticəsində əlaqələndiriləcək, ekspertizanı QHT Agentliyi müsabiqəni birlikdə elan etdiyi qurumun mütəxəssislərini prosesə cəlb etməklə təşkil edəcək, qaliblər siyahısı - nəticələr birlikdə elan olunacaq. Burada QHT Agentliyinin iştirakı dayanacaq, birlikdə həyata keçirilmiş müsabiqələr üzrə qalib QHT-lərlə müqavilələrin bağlanması, onlara vəsaitlərin köçürülməsi, layihələrin monitorinqi və hesabatlarının qəbulu ilə QHT-lərə Dövlət Dəstəyi Agentliyi məşğul olmayacaq. Bu prosesi 2 mərhələli təsəvvür etsək, QHT Agentliyi ancaq əsas mərhələdə - I hissədə yer alacaq, sonrakı hissəyə qarışmayacaq", deyə müsahibimiz vurğulayıb.

Onun sözlərinə görə, yeni mexanizm koordinasiyanın gücləndirilməsinə, vahid databaza və uçotun yaranmasına, milli prioritetlərə uyğun səpkidə mövzuların dövlət qurumları arasında bölüşdürülməsinə, prosesin "bir pəncərə" əsasında təşkilinə və idarə edilməsinə, QHT fəaliyyətlərinin daha səmərəli, nəticəyönümlü olmasına xidmət edəcək.

"bir pəncərə" prinsipi ilə həyata keçirilməsi paralel mexanizmlərin və təkrarlanan proseslərin aradan qaldırılmasına, resursların daha səmərəli bölüşdürülməsinə şərait yaradacaq. Bu həm də QHT-lərin diqqətini texniki prosedurlardan daha çox real ictimai problemlərin həllinə yönəltməsinə imkan verəcək.

Ekspertlər də Fərmanı vətəndaş cəmiyyətinin dövlət siyasətinin formalaşdırılmasında tərəfdaş rolunun gücləndirilməsinə yönəlmiş ardıcıl xəttin davamı kimi qiymətləndirir.

Onların qənaətincə, QHT-lərin ictimai rəyin ifadəçisi və sosial təşəbbüslərin daşıyıcısı kimi rolu möhkəmləndikcə, cəmiyyətlə dövlət arasında qarşılıqlı etimad və əməkdaşlıq dərinləşəcək ki, bu da demokratik idarəetmənin və dayanıqlı inkişafın mühüm şərtidir.

İkinci mühüm məqam isə şəffaflığın və hesabatlılığın artmasıdır. Vahid informasiya sisteminin yaradılması maliyyələşmə proseslərinin izlənilə bilənliyini artırır, qərarların qəbulunda obyektiv meyarların rolunu gücləndirir. Nəticədə QHT sektorunda sağlam rəqabət mühiti formalaşır, ictimai etimad möhkəmlənir.

Bu islahatlar QHT-lərin institusional potensialının gücləndirilməsinə xidmət edir. Dövlət dəstəyinin daha sistemli və strateji yanaşma ilə verilməsi vətəndaş cəmiyyəti institutlarının uzunmüddətli planlaşdırma aparmasına, peşəkar kadr bazasının formalaşdırılmasına və ixtisaslaşmış layihələrin həyata keçirilməsinə şərait yaradır. Bu da QHT-lərin sosial, humanitar, ekoloji, maarifləndirici və ictimai nəzarət funksiyalarını daha effektiv yerinə yetirməsini təmin edir.

Azərbaycan Milli QHT Forumunun



giat layihələrin maliyyələşdirilməsi, hətta bəzi hallarda dövlət qurumlarının öz işçilərinə məxsus QHT-lərə maliyyə ayırmasına gətirib çıxarırdı.

Artıq bundan sonra dövlət qurumlarının hər biri qeyri-hökumət təşkilatlarının müsabiqə yolu ilə və müsabiqədənkənar yolla, dövlət sifarişləri və subsidiya daxil olmaqla bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə həyata keçirəcək.

Z. İbrahimli deyir ki, bu heç də həmin qurumların əlindən maliyyənin alınması anlamına gəlmir.

"Dövlət büdcəsindən QHT-lərə vəsaitlər yenə bu 16 dövlət qurumu tərəfindən veriləcək, dövlət qurumlara ayrılan büdcələrə toxunmayacaq, lakin bütün bu qurumlar QHT-lərə maliyyə ayrılması işlərini vahid sistemlə və QHT-lərə Dövlət Dəstəyi Agentliyi ilə birgə aparacaq. Məsələn, müsabiqələr üçün mövzular, elanlar birlikdə müəyyənləşdiriləcək,

Z. İbrahimli bunu Azərbaycanın QHT sektorunun tarixində yeni səhifənin açılması kimi xarakterizə edir. Bildirir ki, burada söhbət QHT-lərin maliyyələşməsinin mərkəzləşməsindən deyil, müxtəlif qurumlar tərəfindən verilən qrantların koordinasiyasından gedir.

Müsahibimiz vurğulayıb ki, yeni fərman dövlət-vətəndaş cəmiyyəti münasibətlərində yeni mərhələyə keçidi təmin edəcək.

Qeyd edək ki, illərdir bəzi dövlət qurumlarının vətəndaş cəmiyyəti institutlarından olan QHT-lərə ayırdığı maliyyələr tənqid edilirdi. Bu layihələrin prioritet mövzuları əhatə etmədiyi, səmərəli icra edilmədiyi, hətta bəzən dost-tanış QHT rəhbərlərinə maliyyələr ayrıldığı barədə iradlar səsləndirilirdi. Prezidentin imzaladığı yeni fərmanla bu cür nöqsanlar aradan qalxacaq, elm və təhsil, ekologiya, din, səhiyyə,

xüsusilə gənclərlə bağlı layihələrə qrant ayıran dövlət qurumlarına ciddi nəzarət təmin ediləcək. İndiyədək 16-ya yaxın qurumun sərbəst şəkildə ayırdığı qrantların taleyi artıq qaranlıq qalmayacaq. Bu həm də dövlətin vətəndaş cəmiyyətinin inkişafı üçün ayırdığı maliyyənin səmərəliliyini də artıracaq. Nazirlər Kabineti yaxın 3 ay ərzində QHT Agentliyinin nümunəvi qrant qaydaları əsasında bütün dövlət qurumları üçün universal qaydaları hazırlayıb elan edəcək. Bununla da dövlət qurumlarının QHT-ləri maliyyələşdirməsinə dair fərqli qaydaları olmayacaq, bu sahədə mövcud qaydalar ləğv ediləcək, hamı vahid, yeni qaydadan istifadə edəcək.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Milli Qəhrəman Hərbi Memorial Məzarlıqda dəfn olunacaq

***Azərbaycanın Milli Qəhrəmanı Şahin Tağıyevlə vida və dəfn mərasimi sabah saat 11:00-da keçiriləcək.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, o, Hərbi Memorial Məzarlıqda dəfn olunacaq.

Qeyd edək ki, Ş.Tağıyevin cənazəsi bu gün axşam Bakıya gətiriləcək.

Xatırladaq ki, əslən Şuşadan olan Şahin Tağıyev 1949-cu il fevralın 3-də Tərtər şəhərində doğulub. O, 2001-ci ildə Azərbaycanı tərk edərək Avropaya köçüb. Şahin Tağıyev İsveçdə Qocalar evində uzun sürən xəstəlikdən sonra vəfat edib.

# "Aztelekom"un xidmət keyfiyyəti artırılıb

***AZCON şirkətlərindən olan "Aztelekom" MMC tərəfindən xidmət keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər 2025-ci il ərzində vətəndaş müraciətlərinin idarə olunmasında mühüm nəticələr verib.***




"Unikal" xəbər verir ki, qurumun rəsmi internet saytı və sosial şəbəkə hesabları vasitəsilə daxil olan müraciətlərin sayı əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə azalıb.

Müraciət və zənglərin sayında qeydə alınan azalma 2021 - 2024-cü illərdə icra edilmiş "Onlayn Azərbaycan" meqalayihəsi çərçivəsində infrastrukturun yenilənməsi, xidmət keyfiyyətinin yüksəldilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsinin nəticəsi kimi qiymətləndirilir.

Regionlar üzrə onlayn platformalar vasitəsilə 83 mindən çox sorğu emal olunub ki, bu da ötən illə müqayisədə 30 faiz azalma deməkdir. Bakı şəhəri üzrə isə bu göstərici 43 minədək təşkil edib və müraciətlərin sayında 39 faiz azalma qeydə alınıb.

Eyni zamanda 24/7 rejimində fəaliyyət göstərən çağrı mərkəzlərinə daxil olan zənglərin sayında da müsbət dəyişiklik müşahidə olunub. Regionlar üzrə 711 mindən çox zəng qəbul edilib ki, bu göstərici əvvəlki illə müqayisədə 31 faiz azalıb. Bakı şəhəri üzrə isə 578 mindən artıq zəng cavablandırılıb və zənglərin sayında 15 faiz azalma qeydə alınıb.

"Aztelekom" MMC vətəndaşlara daha rahat, əlçatan və dayanıqlı xidmətlərin göstərilməsi məqsədilə bu istiqamətdə fəaliyyətini davam etdirir.



## Neftin qiyməti necə dəyişəcək? - Açıqlama

***"2027-ci illə bağlı ABŞ Energetika İnformasiyası Administrasiyasının gözləntiləri yaxşıdır, hətta sevindiricidir. Deyirlər ki, gələn il neftə olan orta gündəlik qlobal tələbat 104,8 mln bareldən 106,1 mln barelədək yüksələcək".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, bu məntiq yalnız o halda işləyir ki, Venesuela, İran və Qrenlandiya kimi risklər ya bu il həllini tapsın, ya da ən azı 2027-yə doğru böyüməsin:

"Yəni, risklərin sistemli böhran səviyyəsinə çıxacağı gözlənilmir. Qlobal geosiyasətdə risklər kəskinləşəndə neftə tələbat artmır. Ona görə ki, investisiya real sektordan çıxaraq qızıl kimi aktivlərə yönəlir. Onda da neft qiymətləri üçün yaxşı nəsə gözləmək olmur".

## Naxçıvanda orta aylıq əmək haqqı 5%-dən çox artıb

***2025-ci ildə Naxçıvan Muxtar Respublikasında orta aylıq nominal əməkhaqqı 812,6 manat təşkil edib.***

Bu barədə "Unikal" Naxçıvanın Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Məlumata görə, bu göstərici 2024-cü illə müqayisədə 5,2% çoxdur.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin son məlumatlarına əsasən, 2025-ci il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1,782 milyon nəfər olub, onlardan 865,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 916,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

2025-ci ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1086,3 manat təşkil edib.

## 2025-ci ildə rekord sayda elektromobil satılıb

***2025-ci ildə dünya bazarında elektrik mühərrikli avtomobillərin satışları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 20 faiz artaraq yeni rekord müəyyən edib.***

"Unikal" xəbər verir ki, Londonda yerləşən "Benchmark Mineral Intelligence" analitika şirkətinin məlumatına görə, ötən il bütün dünyada 20,7 milyon ədəd elektromobil satılıb.

Satılan elektromobillərin təxminən 13 milyonu Çinin payına düşür. Ölkə daxilində rəqabət gücləndikcə, ÇXR-in avtomobil istehsalçıları xarici bazarlara daha çox üz tuturlar. Cənubi Amerika, Cənub-Şərqi Asiya və Mərkəzi Asiya ixrac axınından ən çox faydalanan istiqamətlərdir.

Çin kompaniyalarının elektromobilləri ötən il Avropa bazarındakı satışların 19 faizini təşkil edib. Ümumilikdə isə 2025-ci ildə Avropada elektrik mühərrikli nəqliyyat vasitələrinin satışlarında 33 faizlik artım müşahidə olunub.

# Palata nazirlikdə maliyyə pozuntuları üzrə icra vəziyyətini açıqladı

***Gənclər və İdman Nazirliyində dövlət vəsaitlərinin və digər dövlət əmlakının istifadəsi ilə bağlı aparılmış uyğunluq auditi nəticəsində aşkar edilmiş bütün maliyyə pozuntuları və çatışmazlıqlar üzrə qərarların icra vəziyyəti açıqlanıb.***

"Unikal" bu barədə Hesablama Palatasının hesabatına istinadən xəbər verir. Sənədə əsasən, atıcılıq idman növü üzrə ezamiyyə günlərinin artıq yazılması və nəzərdə tutulmadığı halda daşınma xərci ilə bağlı artıq ödənilmiş 6 212,2 manat, taekvando idman növü üzrə 176,3 manat, həndbol idman növü üzrə 1 785,0 manat, atletika idman növü üzrə 4 603,8 manat, yelkənli idman növü üzrə aviasiya bileti ilə bağlı 465,5 manat və təkrar ödənilmiş 1 057,7 manat, qılıncoynatma idman növü üzrə 233,1 manat və kamandan oxatma idman növü üzrə təlim-məşq toplanışları zamanı artıq ödənilmiş 120 manat, beynəlxalq reqata yarışlarının keçirilməsi zamanı artıq ödənilmiş 1 830,0 manat məbləğində yemək xərcləri dövlət büdcəsinə bərpa edilib.




Bununla yanaşı, idman geyimlərinin alınması zamanı tutulmamış 4 545,7 manat vergi məbləği, beynəlxalq velosiped turnirinin keçirilməsi zamanı artıq ödənilmiş 957,8 manat, 2022-ci ilin yekunlarına görə 2023-cü ildə sərbəst güləş və yunan-Roma güləşi üzrə mükafatlandırmada artıq ödənilmiş 700 manat vəsait də büdcəyə qaytarılıb.

Hesabatda qeyd olunur ki, "Yerli" gənclərə dəstək layihəsi üzrə keçirilməyən dərs saatlarına görə 44 663,5 manat, Türk Dövlətləri Təşkilatının "Gənclər və idman sahələrinə məsul nazirlərinin 7-ci iclasının keçirilməsi" layihəsi üzrə normalara əməl edilməməsi səbəbindən ƏDV daxil mehmana xərci üçün 10 874,9 manat və əlavə olaraq 1 274,4 manat, İslam Əməkdaşlıq Təşkilatının gənclər və idman nazirlərinin Daimi Şurasının 3-cü iclasının keçirilməsi zamanı normalara əməl edilməməsi səbəbindən yemək xərci üzrə 4 059,2 manat, "II Milli Yaylaq Festivalı"nın keçirilməsi zamanı yemək xərcləri üzrə 13 007 manat artıq ödəniş də dövlət büdcəsinə bərpa olunub.

Eyni zamanda, "Azərbaycan və Rusiyanın I Gənclər Təşəbbüslərinin Forumu"nun keçirilməsi zamanı xidmətlər üzrə dəyərindən artıq ödənilmiş 741,52 manat, "Şahin" hərbi-idman oyununun respublika finalının keçirilməsi zamanı yemək xərcləri üzrə normalara əməl edilməməsi səbəbindən ödənilmiş 6 000 manat, Dünya robot olimpiadası yarışına hazırlıq, yarışdan əvvəl və yarış vaxtı yerinə yetirilməyən işlər üzrə 1 000,0 manat, "Gənclərin Xalq Yaradıcılığı Beynəlxalq Festivalı" zamanı mehmana xərci üzrə 1 356,8 manat və idman azarkeşlərinə artıq ödənilmiş 4 209 manat vəsaitin bərpası da təmin edilib.

Hesabatda, həmçinin mükafatlandırma üçün ayrılmış, lakin istifadə edilməyərək büdcəyə qaytarılmayan 93 000 manat məbləğində vəsaitin dövlət büdcəsinə tam şəkildə bərpa edildiyi qeyd olunub.

Audit zamanı "GəncFest" gənclər festivalı üzrə 31 640 manat, Qoşulmama Hərəkatının Gənclər Sammiti üzrə 20 511,9 manat, "Azərbaycan V Robot" olimpiadası üzrə 26 623,0 manat, "Gənc sahibkarların III Forumu" üzrə 2 383,6 manat və "Şahin" hərbi-idman oyununun respublika finalı üzrə 23 125,0 manat dəyərində xərcə silinmiş və uçota götürülməmiş aktivlərin müvafiq qaydada uçota alındığı bildirilib.

Bundan başqa, əvəzsiz verilərək ərazidə quraşdırılmış 12 519,28 manat dəyərində 1 ədəd LED Screen LED video prosessoru, 2 784,8 manat dəyərində 1 ədəd avtomatik açılıb-bağlanma avadanlığı, alınmış, lakin paylanmamış 127 217,31 manat dəyərində idman geyimləri, eləcə də "Texnofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı üzrə 15 683,0 manat dəyərində aktivlər uçota götürülüb.

Hesabatda göstərilir ki, "Texnofest Azərbaycan" çərçivəsində 2 312,8 manat dəyərində dron Binəqədi Gənclər Evinə verilib, 61 973,35 manat dəyərində çatışmayan idman qidaları və bərpaedici vasitələr, 9 675,41 manat dəyərində çap məhsulları, həmçinin tibbi çantalarda 13 095,81 manat dəyərində tibbi vasitələr paylanıb və "Şən Gənc" layihəsi üzrə 25 mart 2024-cü il tarixinə 13 verilişin hazırlanmasına dair təsdiqedici sənədlər təqdim olunub.

Audit nəticələrinə görə, "Azəridmanservis" MMC tərəfindən çatışmayan 1 751 698,59 manat məbləğində vəsait Nazirliyin bank hesabına tam şəkildə bərpa edilib.

Eyni zamanda, xidməti istifadədə olan minik avtomobillərinin sayının hüquqi aktlarla müəyyən edilmiş normalara uyğunlaşdırılması üçün zəruri tədbirlərin həyata keçirildiyi bildirilib.

Hesabatda qeyd olunur ki, əməkhaqqı və mükafatlardan ayrılıqda gəlir vergisinin tutulması nəticəsində 2022-ci il üzrə 5 026,99 manat, 2023-cü il üzrə isə 16 115,19 manat olmaqla, ümumilikdə 21 142,18 manat məbləğində az tutulmuş gəlir vergisinin bərpası qismən icra edilib və icra prosesi davam etdirilir.

Bununla yanaşı, 1 yanvar 2024-cü il tarixinə mövcud olan 5 177 210,88 manat məbləğində debitor borcun, o cümlədən Bakı şəhəri və regionlarda yerləşən gənclər evlərində debat klublarının yaradılması və debat forumunun keçirilməsi ilə bağlı 30 dekabr 2022-ci il tarixində köçürülmüş 72 569,53 manat avans vəsaitinin bağlanması istiqamətində tədbirlər görülür.

Hesabatda, həmçinin müvafiq illər üzrə əməliyyatların məzmununa uyğun olaraq kassa və faktiki xərclərin, eləcə də uçotdan yayındırılmış aktivlərin mühasibat yazılışları ilə maliyyə hesabatlarında əks etdirilməsi üzrə qərarların qismən icra edildiyi qeyd olunub.

Bununla yanaşı, 2022-ci il üzrə 35 966,85 manat, 2023-cü il üzrə isə 30 668 manat məbləğində qabaqcadan ödənilmiş yanacaq xərcləri üzrə mühasibat uçotunda müvafiq müxabirləşmənin aparılmadığı, həmçinin 2023-cü il maliyyə hesabatlarında 888,4 manat məbləğində qalığın əks etdirilmədiyi və bu qərarın icrasının hələ də təmin edilmədiyi bildirilib.

Audit nəticəsində Goranboy, Yardımlı və Tərtər olimpiya idman komplekslərinin Nazirliyin balansından çıxarılması təmin edilib və bu əməliyyatlar 2023-cü il üçün tərtib edilmiş maliyyə hesabatlarında əks etdirilib.

02_27 IYUl-QARA.qxd 1/15/2026 8:55 PM Page 14



# Azərbaycanda 7 vəkil cəzalandırıldı




***Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə kollegiyadan bildirilib. İclas zamanı vəkilliyə qəbulla bağlı məsələyə baxılıb. Belə ki, ixtisas imtahanlarının yazılı və şifahi mərhələlərini, həmçinin icbari təlim proqramlarını uğurla tamamlayan namizədlər üçün andiçmə mərasimi keçirilib. Namizədlər vəkil etikası normalarına və peşə borcuna sadiq qalacaqlarına dair and içərək Kollegiyanın üzvlüyünə qəbul olunublar. Onlara vəkil vəsiqələri təqdim edilib və gələcək fəaliyyətlərində uğurlar arzulanıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 dekabr 2025-ci il tarixli Sərəncamı ilə hakim vəzifəsinə təyin edilən VK-nın 8 üzvü - Alməmmədov Nəriman Əli oğlu, Əliyeva Aytəkin Güləli qızı, Qazıbəyov İbrahim Mehman oğlu, Maxsudova Ülkər Taleh qızı, Mirzəzadə Asim Vilayət oğlu, Mustafayev Cavidan Mustafa oğlu, Səfərli Günel Adil qızı, Süleymanov Cavid Loğman oğlunun mükafatlandırılmaları və fəaliyyətlərinə xitam verilməsi məsələsinə baxılıb və müsbət qərar verilib.

Bundan başqa, bəzi vəkillərin digər vəkil qurumlarına keçməsi və vəkil kabinetinin ləğv edilməsi ilə barədə müraciətlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

İclasın davamında Vəkillərin İntizam Komissiyasının rəylərinə baxılıb. Rəyasət Heyətinin müvafiq qərarları ilə yol verdikləri pozuntulara görə 7 vəkil barəsində intizam tənbehi tədbirləri tətbiq edilib və 2 vəkilə isə peşə fəaliyyəti zamanı qanunvericiliyin tələblərinə ciddi riayət etmələri tapşırılıb.

Sonda Kollegiyanın fəaliyyəti ilə bağlı digər cari və əhəmiyyətli məsələlər də müzakirə olunub və zəruri qərarlar qəbul olunub.

# Müşfiqin qisməti şəhidlik zirvəsi oldu

***Biləsuvar rayonunun Günəşli kəndində boya-başa çatan 44 günlük haqq savaşımızda Vətənin azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Müşfiq Zakir oğlu Xosizadənin xatirəsi bütün Azərbaycan xalqı tərəfindən müqəddəs tutulur və onun 26 ilik şərəfli ömür yolu örnək göstərilir. Qərinələr keçəcək, yenə də belə olacaq. Çünki Müşfiq öz adını qəhrəmanlıq tariximizə qanı bahasına əbədi olaraq həkk edib.***



Canından artıq sevdiyi Vətən, torpaq uğrunda son nəfəsinədək vuruşan Müşfiq Zakir oğlu özünü biləndən Erməni işğalçıların ölkəmizin müqəddəs guşəsi olan Qarabağa hücum ilə heç cür barışmayıb. Yaşının üstünə yaş gələndə dığalara nifrəti daha da artıb. Odur ki, orta məktəbi yaxşı qiymətlərlə bitirsə də, Vətənin çətin günündə əsgər olub onun keşiyində durmağı hər şeydən üstün tutub. Böyük həvəslə ordu sıralarına yollanıb və cəbhə bölgəsində xidmətə başlayıb. Yurduna olan halal sevgisi qısa zaman kəsiyində onu nümunəvi əsgər kimi komandirlərin sevimlisi edib. Müqəddəs borcunu şərəflə yerinə yetirən Müşfiq məqamı gələndə yağıdan alacağı öcə də ciddi hazırlaşıb. Məqsədinə çatmaq üçün qatıldığı çətin təlimlərdən belə uğurla çıxıb, necə qəhrəman, igid oğul olduğu bilinib. Valideynlərinin yanına qələbə sorağı ilə qayıtmaq istəyində olan Müşfiq əsgərlik həyatını başa vuran kimi yenidən hərbiyə yazılıb. Dediyi də belə olub:" Çox az qalıb. İnşallah qeyrətli oğullarımızın hesabına erməni dığalarının başını əzib, Qarabağımızı azad edərik. Onda məndə ataanamın yanına alnıaçıq, başıuca, ən əsası qalib xalqın oğlu olaraq dönərəm."

Andına sadiq qalan Azərbaycan Silahlı Qüvvələrinin giziri Müşfiq Xoşizadə İkinci Qarabağ müharibəsi başlanan günü Vətənin müdafiəsinə qalxıb və bu müqəddəs yolda şəhid olmağı özünə şərəf sayıb. Düşməni məğlub edib Qarabağı azad görmək istəyi ilə o, silaha sarılıb neçəneçə qanlı döyüşlərdən zəfərlə çıxıb. Vuruşduğu ağır, ölüm-dirim savaşında silahının nişangahına tuş gələn onlarla erməni qəsbkarını məhv edib. Ürəyi Vətən eşqi ilə döyünən Müşfiqi yalnız 30 il düşmənə əsir düşən Qarabağın azadlığı düşündürüb. Füzuli uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqla tarix yazıb. Təəssüflər olsun ki, elə bu savaş zamanı düşmən tərəfindən açılan qəfil bir atəş onun bütün arzularını yarımçıq qoyub. Vətən naminə canından keçməklə bir evin oğlundan, bir elin, bir xalqın övladına çevrilib və əbədi olaraq doğulduğu kənd qəbiristanda sevdalandığı torpağın sinəsinə baş qoyub. Həm də milyonların qəlbində özünə yuva quran Biləsuvarın qəhrəman oğlu ölümündən sonra Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezidenti, Ali Baş komandan İlham Əliyevin Sərəncamları əsasında "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşlərdə fərqlənməyə görə" medallarına layiq görülüb.

Yurdumuzun azadlığı uğrunda başlayan döyüşlərdə son nəfəsinədək cəsarətlə, hünərlə vuruşub şəhidlik zirvəsinə ucalan Müşfiq Xoşizadə ilə bütün Azərbaycan xalqı fəxr edir. Müşfiq kimi Vətənini canından da çox sevən oğullar heç zaman ölmürlər.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***




# 2025-ci ilin 9 ayında Yevlaxda sənayenin inkişafı belə olub

***Yevlax rayonunun sənayesi emalı, elektrik enerjisi qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələri ilə təşkil olunmuşdur.***

Rayon ərazisində 57 sənaye müəssisə qeydiyyatdan keçmiş, 2025-ci ilin yanvar-sentyabr aylarında yalnız 16 müəssisə fəaliyyət göstərmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında sənaye müəssisələrində malların istehsalı və sənaye xarakterli xidmətlərin həcmi 27158,2 min manat olmuşdur. Sənaye istehsalı indeksi (sabit qiymətlərlə) 37,1 faiz təşkil etmişdir. İstehsal olunmuş və göstərilmiş xidmətlərdən 15134,4 min manatı hüquqi şəxslərin, 7851,3 min manatı fiziki şəxslərin, 4172,5 min manatı isə ev təsərrüfatlarında sənaye fəaliyyəti ilə məşğul olan təsərrüfatların hesabına olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında sənaye müəssisələrinin gördüyü işin həcminin 9900,0 min manatı və ya 36,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 548,7 min manatı və ya 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin, 16709,5 min manatı və ya 61,5 faizi emal sənayesinin payına düşür.

Əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə emal sənayesi üzrə məhsul istehsalı 28,1 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsi üzrə 75,6 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsi üzrə isə 2,6 faiz az olmuşdur.

Hesabat dövrü ərzində emal sənayesinə mənsub olan qeyri-dövlət sektorunda istehsalın həcmi 16709,5 min manat olmuş və sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi 61,5 faiz təşkil etmişdir.

2025-ci il oktyabrın1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında mal qalığı 2051,6 min manat, ötən ilin müvafiq dövründə isə 337,0 min manat olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Şamxal Mirzəyev***

# Ağdaşda meyvə və giləmeyvə istehsalı artıb

***Son illərdə Ağdaş rayonda meyvə bağlarının salınmasına maraq artmışdır. 2025-ci ildə əvvəlki illə müqayisədə 6,8 dəfə çox 1036,6 hektar sahədə yeni bağlar salınmışdır. Hazırda meyvə və giləmeyvə bağlarının ümumi sahəsi 4 min 806,3 hektara çatdırılmışdır ki, onun da 3 min 307,0 hektarı bar verən bağlarıdır.***

İl ərzində bağlardan 47 min 10,3 ton məhsul toplanmışdır. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz və ya 1602,3 ton çoxdur. Rayonda xurma bağlarının əkin sahəsi üstünlük təşkil edir. Belə ki ümumi əkin sahəsinin 46,2 faizini və ya 2 min 221,6 hektarını xurma bağları təşkil etmişdir.

İl ərzində bağlardan 27 min 562,6 ton xurma, 5 min 16,2 ton alça, 6 min 711,5 ton nar, 3 min 174,5 ton heyva, 1 min 684,2 ton gilas, 646,2 ton gavalı və digər meyvələr istehsal olunmuşdur. Meyvə istehsalı rayonun Yuxarı Ağcayazı, Dəhnəxəlil, Kükəl, Qolqəti, Aşağı Zeynəddin, Gürcuva və Birinci Aral kəndlərində daha çox olmuşdum.

***Ağdaş Rayon Statistika İdarəsi***

02_27 IYUl-QARA.qxd 1/15/2026 8:55 PM Page 15



## ABŞ TRIPP-in hazırlıq prosesi üçün 140 milyon dollar ayırdı



***ABŞ TRIPP layihəsinin hazırlıq prosesi üçün artıq 140 milyon dollar ayırıb.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib.

Onun sözlərinə görə, layihənin hazırlıq prosesi üçün artıq 140 milyon dollar ayrılıb.

## Kolumbiya lideri Trampla görüşəcək - Bu tarixdə



***Kolumbiya Prezidenti Qustavo Petro amerikalı həmkarı Donald Trampla görüşəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Kolumbiya lideri özü məlumat verib

Qeyd olunur ki, görüş fevral ayının 3-də baş tutacaq. "Biz bunun nəticələrini görəcəyik", - deyə Petro bildirib. Bildirək ki, son aylarda Vaşinqton və Boqota arasında münasibətlər kəskinləşib.

***Gülayə Mecid***

## ABŞ Azərbaycan vətəndaşlarına viza vermir? - Rəsmi açıqlama



***Ötən gün mətbuatda ABŞ-nin 75 ölkənin, o cümlədən Azərbaycanın vətəndaşları üçün bütün viza növlərini dayandırdığı iddiası ilə bağlı məlumatlar yayılıb.***

ABŞ-nin Azərbaycandakı səfirliyindən "Unikal"a bildirilib ki, bu məlumat həqiqəti əks etdirmir:

"Sözügedən fasilə yalnız immiqrant (daimi yaşayış) vizalarına aiddir və turist, işgüzar səfər, tələbə və mübadilə proqramları üzrə qeyri-immiqrant viza müraciətlərinə şamil edilmir. ABŞ-nin Bakıdakı səfirliyində qeyri-immiqrant viza müraciətlərinin qəbulu davam edir".

## FTX Moskvada Britaniya casusunu ifşa etdi

***Rusiya xüsusi xidmət orqanları Moskvadakı səfirlikdə çalışan Britaniya kəşfiyyat zabitini müəyyən edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federal Təhlükəsizlik Xidməti məlumat yayıb.

Qeyd olunur ki, FTX əməkdaşları Moskvadakı səfirliyin iqtisadi şöbəsində katib vəzifəsində çalışmaq üçün Rusiyaya gizli şəkildə göndərilən elan edilməmiş Britaniya kəşfiyyat zabiti Qaret Samuel Devisin şəxsiyyətini müəyyən ediblər.

"Əks-kəşfiyyat işləri zamanı 8 avqust 1980-ci il təvəllüdlü, Britaniya kəşfiyyatının elan edilməmiş zabiti Qaret Samuel Devis müəyyən edilib. O , Moskvadakı Britaniya səfirliyinin İnzibati və İqtisadi Departamentində ikinci katib vəzifəsi adı altında Rusiyaya göndərilib ", - deyə kəşfiyyat agentliyi aydınlaşdırıb.

FTX qeyd edib ki, Rusiya Xarici İşlər Nazirliyi Samuelin akkreditasiyasını ləğv etmək qərarına gəlib və ona iki həftə ərzində Rusiyanı tərk etməyi əmr edib.

***Gülayə Mecid***

# Rusiyadakı azərbaycanlıların məhkəməsi başlayır

***Yekaterinburqun Kirovski Rayon Məhkəməsində Azərbaycan diasporu üzvlərinə qarşı cinayət işi üzrə münsiflər heyətinin seçimi başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV yazıb. Müttəhimlər kürsüsündə Şücayəddin Rəcəbov və beş Səfərov qardaşı - Akif, Ayaz, Bəkir, Kamal və Məzahir var. Onlardan son üçü 2001-ci ildə Yunis Paşayevi qətlə yetirməkdə ittiham olunurlar. Müstəntiqlərin sözlərinə görə, Səfərovlar Paşayevin bıçaqla öldürmək istədiyi qardaşları Akifə hücumun qisasını almaq üçün "qan düşmənçiliyi"ndən istifadə ediblər.

Bundan əlavə, Ayaz Səfərov, Şücayəddin Rəcəbov və Azərbaycan diasporunun keçmiş rəhbəri Şahin Şıxlinski 2010-cu ildə Fehruz Şirinovun qətlinə cəhdin təşkilində ittiham olunurlar.



Akif Səfərovu təmsil edən vəkil Maksim Şestopalovun sözlərinə görə, təqsirləndirilən şəxslərdən heç biri günahını etiraf etmir.

Onun sözlərinə görə, bütün cinayət işi zərərçəkmiş Şirinovun sözlərinə əsaslanır və guya o, Şahin Şıxlinskinin Səfərovlara Paşayevi öldürmək üçün təlimat verdiyini eşidib.

Səfərov qardaşları 27 iyun 2025-ci ildə saxlanılıblar. Hüseyn və Ziyəddin Səfərovlar Rusiya xüsusi xidmət orqanlarının vəhşicəsinə davranışı nəticəsində vəfat ediblər. Onlar Azərbaycanda dəfn olunublar.

İyul ayında Şahin Şıxlinski oğlu Mütvala Şıxlinski ilə birlikdə saxlanılıb. Şıxlinskilər "Mercedes Benz" markalı avtomobillə gedərkən xüsusi təyinatlı qüvvələr onlara hücum edib. Bu hadisəyə görə Şıxlinskinin oğluna Cinayət Məcəlləsinin 318-ci maddəsinin 2-ci hissəsi, "Dövlət nümayəndəsinə qarşı zorakılıq tətbiq etmə" ilə ittiham irəli sürülüb.

İki həftə sonra Şahin Şıxlinski də həbs edildi. Qeyd etmək lazımdır ki, xüsusi təyinatlı qüvvələr zabitinə hücumla bağlı Mütvala və Şahin Şıxlinskilərə qarşı qaldırılan cinayət işi ayrıca icraata götürülüb.

Məhkəmədə münsiflər heyətinin seçilməsi prosesinə yanvarın 15-də başlanılması gözlənilir.

***Ağarza Elçinoğlu***

## "Biz İrana hərbi müdaxiləyə qarşıyıq" - Hakan Fidan

***Türkiyənin xarici işlər naziri Hakan Fidan İrandakı hadisələri yaxından izlədiklərini və regional sabitliyə böyük əhəmiyyət verdiklərini bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə yerli mediaya açıqlama verib.

"Bölgəmizdə çoxsaylı inkişaf edən problemlər mövcuddur. Bunlardan biri də İranın illərdir məruz qaldığı sanksiyalardır. Bölgədə bir sıra siyasi fikir ayrılıqları mövcuddur. İranın dostu və qonşusu olaraq, biz fikirlərimizi səmimi və aydın şəkildə bölüşürük. Bu, bizim sərhəd qonşumuzdur, əsrlər boyu dəyişməz qalan sərhədimiz var və iki xalq çox oxşardır. Buna görə də İranda baş verənlər bizi yaxından narahat edir və biz bunu yaxından izləyirik. Problemlərin dialoq yolu ilə həll olunmasını istəyirik. Ümid edirəm ki, İran və ABŞ bu məsələni öz aralarında həll edəcəklər. Biz İrana hərbi müdaxiləyə qarşıyıq",- deyə nazir vurğulayıb.



***Gülayə Mecid***

## "Hakimiyyət dəyişsə, İran İsraili tanıyacaq" - Pəhləvi

***Hakimiyyət dəyişikliyi halında, İran hərbi nüvə proqramını dayandıracaq, İsraili tanıyacaq və ABŞ ilə münasibətləri normallaşdırmağa çalışacaq.***

"Unikal" xəbər verir ki, bunu İranın devrilmiş şahının oğlu, vəliəhd şahzadə Rza Pəhləvi deyib.

O, İranın gələcəyi ilə bağlı belə bir vizyonunu özünün X səhifəsində ifadə edib. Pəhləvi müraciətində bildirib ki, İranın mövcud sistemdəki qlobal imici "terrorizm, ekstremizm və yoxsulluq" tərəfindən formalaşıb: "Təhlükəsizlik və xarici siyasət sahələrində İranın hərbi nüvə proqramı dayandırılacaq. Terrorçu qruplara dəstək dərhal dayandırılacaq. Azad İran terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik qaçaqmalçılığı və ekstremist islamçılığa qarşı mübarizə aparmaq üçün regional və qlobal tərəfdaşlarla əməkdaşlıq edəcək. Amerika Birləşmiş Ştatları ilə münasibətlər normallaşacaq, Amerika və onun xalqı ilə dostluğumuz bərpa olunacaq. İsrail dövləti dərhal tanınacaq".

Pəhləvi həmçinin beynəlxalq ictimaiyyəti İran xalqını dəstəkləməyə çağırıb: "Azad İran sülh, rifah və tərəfdaşlıq üçün bir qüvvə olacaq".

***Ağarza Elçinoğlu***

## Tramp Zelenskini sülhə manea adlandırdı

***ABŞ prezidenti Donald Tramp Rusiya lideri Vladimir Putinin Ukraynadakı döyüşlərə son qoymaqda qətiyyətli olduğunu bildirib. Eyni zamanda, onun sözlərinə görə, Kiyevin mövqeyi daha az qəti və ehtiyatlı görünür.***

"Unikal" xəbər verir ki, Amerika prezidenti bu barədə jurnalistlərlə söhbətində bildirib.

Ağ Ev rəhbəri jurnalistlərin ABŞ-nin vasitəçiliyi ilə aparılan



danışıqların hələ də nəticə verməməsi ilə bağlı suallarını cavablandırarkən qısaca olaraq "Zelenski" deyib. Tramp həmçinin gələn həftə Davosda keçiriləcək Dünya İqtisadi Forumunda Zelenski ilə şəxsi görüşü də istisna etməyib.

Qeyd edək ki, Tramp bu sözləri ilə Zelenskiyə qarşı yenidən narazı olduğunu ifadə edib. İki lider arasında gərginlik uzun müddətdir mövcuddur, lakin onların münasibətləri Trampın prezidentliyinin ilk ilində yaxşılaşıb.

***Gülayə Mecid***

02_27 IYUl-QARA.qxd 1/15/2026 8:55 PM Page 16



# DÇ-2026-da azarkeşlərin ən çox maraq göstərdiyi matçlar bəlli oldu




***FIFA 2026-cı il dünya çempionatı üçün bilet satışlarında rekord səviyyədə müraciətlə üzləşib. Oyunların rəsmi cədvəli açıqlanmadan əvvəl, ötən ilin oktyabr və noyabr aylarında artıq 2 milyon bilet satılıb. Turnir üzrə ümumilikdə 4-5 milyon biletin hələ də satışda olduğu bildirilir.***

"Unikal" xəbər verir ki, FIFA-nın açıqlamasına görə, son müraciət mərhələsində biletlər üçün 500 milyondan çox sifariş daxil olub. Bu isə dünya çempionatına marağın mövcud bilet sayından xeyli çox olduğunu göstərir.

Ən çox maraq göstərilən görüşlər Kolumbiya - Portuqaliya, Meksika - Koreya, dünya çempionatının final görüşü və Meksika - Cənubi Afrika açılış matçı olub. Həmçinin iyulun 2-də Torontoda keçiriləcək 1/32 final oyunu da azarkeşlərin böyük marağına səbəb olub.

Mütəxəssislər həlledici mərhələlərin matçlarına, eləcə də Meksika, Argentina, Kolumbiya və Portuqaliya kimi komandaların oyunlarına yüksək tələbatı normal hesab edir. Bununla belə, daha az tanınan komandaların qarşılaşmalarına bu qədər yüksək qiymətlərlə marağın necə olacağı sual altındadır.

FIFA artan tələbatı bilet qiymətlərinin yüksək olmasını əsaslandırmaq üçün arqument kimi göstərir. Lakin bir çox azarkeş qiymətləri həddindən artıq baha hesab edir. Bildirilir ki, bilet qiymətləri əvvəlki dünya çempionatları ilə müqayisədə xeyli artıb və bu səbəbdən bəzi azarkeşlər oyunları stadiondan deyil, evdən izləməyə üstünlük verirlər.

Buna baxmayaraq, ilkin satış mərhələsində FIFA-ya ayrılmış biletlər qısa müddətdə tükənib. Qiymətlər artırılsa da, biletlər yenidən satış platformalarında daha baha məbləğə təklif olunur.

DÇ-2026 iyunun 11-də Meksika şəhərində start götürəcək və iyulun 19-da ABŞ-ın Nyu-Cersi ştatında başa çatacaq. Turnirin oyunları ABŞ, Kanada və Meksikanın 16 şəhərində keçiriləcək.

# İmamoğlunun idmançı sevgilisi də saxlanıldı

***Türkiyədə məşhurları hədəf alan narkotik araşdırması çərçivəsində milli voleybolçu Derya Çayırgan və daha 12 şübhəli saxlanılıb.***



"Unikal" xəbər verir ki, bu barədə Türkiyə KİV-ləri yazıb. Qeyd olunur ki, saxlanılan şəxslər İstanbul Ədliyyəsinə aparılıb.

Bununla yanaşı, istintaq çərçivəsində həbs olunan, sosial media fenomeni Rabia Karaca, voleybolçu Derya Çayırgan barəsində iddia irəli sürüb. Karacanın sözlərinə görə, Derya Çayırgan hazırda həbsdə olan İstanbul Böyükşəhər Bələdiyyəsinin keçmiş meri Əkrəm İmamoğlunun sevgilisidir.

"15 nömrəli fotoda Derya Çayırganı tanıdım. Bu şəxs İmamoğlunun sevgilidir. O, yalnız İmamoğluna məxsus idi. Bizimlə heç bir əlaqəsi yox idi", - deyə Rabia ifadəsində qeyd edib.

**Seymur Əli**

# Millimizin Danimarka ilə yoldaşlıq oyunlarının hakimləri açıqlandı

***Futzal üzrə Azərbaycan millisinin Danimarka yığması ilə keçirəcəyi yoldaşlıq oyunlarını idarə edəcək hakimlər bəlli olub.***

Bu barədə "Unikal"a Azərbaycan Futzal Federasiyasından məlumat verilib.

Yanvarın 22-də saat 19:00-da start götürəcək qarşılaşmada Əli Cəbrayılov, İmran Məhərrəmov, Ramil Namazov hakimlik edəcəklər.

Yanvarın 24-də saat 16:00-da başlayacaq görüşə Knyaz Əmiraslanov, Rza Məmmədov, Anar Fərəcov təyinat alıblar.




# "İnter" qələbə qazandı, "Napoli" xal itirdi

***İtaliya A Seriyasında XVI turdan təxirə salınmış iki oyun keçirilib.***

"Unikal" xəbər verir ki, çempionluq mübarizəsi aparan "Napoli" "Parma" ilə qolsuz heç-heçə edib.

Turnir cədvəlinin lideri "İnter" isə evdə "Leççe" ilə qarşılaşıb.

Görüş Milan klubunun 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Hazırda "İnter" 46 xalla turnir cədvəlinə başçılıq edir. Neapol təmsilçisi 40 xalla üçüncü yerdədir.

# Tanınmış futbolçunun meyiti tapıldı - Keçən ay güllələnmişdi

***Rusiyanın ÇSKA klubunun yetirməsi olan peşəkar futbolçu Lionel Adamsın cəsədi Moskva vilayətində çoxmərtəbəli binalardan birinin yaxınlığında aşkar edilib.***

"Qafqazinfo" xəbər verir ki, bu barədə "Mash na sport" nəşri məlumat yayıb.

Məlumata görə, futbolçu hadisə yerinə gələn təcili yardım əməkdaşlarının müdaxiləsinə baxmayaraq, vəfat edib. Bildirilib ki, Adams ölümündən qısa müddət öncə Yaltanın "Rubin" klubunun keçmiş oyunçusu Timur Maqomedovun qonağı olub.

Xatırladaq ki, futbolçunun ölümü ilə bağlı müəmmalar dekabr ayında baş verən silahlı insidentlə daha da dərinləşib.

Belə ki, 2025-ci ilin dekabrında Adams gecə klublarından birində on nəfərin hücumuna məruz qalmışdı. Mübahisə zamanı hücum edənlərdən biri futbolçuya atəş açıb, digərləri isə onu amansızcasına döymüşdülər. Budundan güllə yarası alan Adams xəstəxanaya yerləşdirilmişdi.

Hazırda onun müəmmalı ölümü ilə həmin hücum arasında əlaqənin olub-olmadığı araşdırılır.

# "Real Madrid" Kral Kubokunda mübarizəni dayandırdı

***"Real Madrid" İspaniya Kral Kubokunda mübarizəni dayandırıb.***

"Unikal" xəbər verir ki, Madrid klubu 1/8 finalda ikinci liqa təmsilçisi "Albasete" ilə qarşılaşıb.

Gərgin və maraqlı keçən görüş "kral klubu"nun 2:3 hesablı məğlubiyyəti ilə başa çatıb.

Bununla da İspaniya nəhəngi kubokla vidalaşıb.

# "Arsenal" "Çelsi"ni məğlub etdi

***İngiltərə Liqa Kubokunun yarımfinalın ikinci oyunu keçirilib.***

"Unikal" xəbər verir ki, "Arsenal" səfərdə "Çelsi" ilə qarşılaşıb. Gərgin və maraqlı keçən görüş "topçular"ın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Cavab oyunu fevralın 2-də təşkil olunacaq.

Yarımfinalın digər görüşündə "Mançester Siti" "Nyukasl"a 2:0 hesabı ilə qalib gəlib.

Final martın 22-də keçiriləcək.

# Mərakeş və ya Seneqal ikinci dəfə kubokun sahibi ola bilər

***Mərakeşin ev sahibliyi etdiyi Afrika Millətlər Kubokunda finalçılar bəlli olub.***

"Unikal" xəbər verir ki, həlledici görüşdə ev sahibi komanda ilə Seneqal mübarizə aparacaq. Final görüşü yanvarın 18-də təşkil olunacaq. Hər iki yığma bir dəfə Afrika Millətlər Kubokunun qalibi olub.

# "Qarabağ" – "Ayntraxt" matçının biletləri bu tarixdə satışa çıxır

***UEFA Çempionlar Liqasının Liqa mərhələsi çərçivəsində keçiriləcək "Qarabağ" - "Ayntraxt" (Almaniya) oyununun biletləri satışa çıxır.***

"Unikal" Ağdam klubunun mətbuat xidmətinə istinadən xəbər verir ki, biletlər 16 yanvar, saat 12:00-dan etibarən satışda olacaq.

Standart biletlərin qiyməti:
10, 15, 25, 35, 40, 50, 75 AZN
VIP sektorlar: 200, 250, 300 və 400 AZN
VVIP sektorlar: 1000 AZN

Biletlər yalnız iTicket.az-ın mobil tətbiqi və saytı üzərindən əldə edilə bilər. Onlayn bilet alışı ilə bağlı çətinlik yarandıqda azarkeşlər iTicket.az-ın satış məntəqələrinə, Park Bulvardakı "Qarabağ" FK-nın Fan-Şopuna və Tofiq Bəhramov adına Respublika stadionunun kassalarına müraciət edə bilər.

Klubun açıqlamasında bildirilib ki, saxta biletlərə və digər saytlara aldanmayın.